

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 201 (7126)

SƏS

31 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

## Bakıda növbəti ağacəkmə aksiyası keçirilib



4

# Müasirləşən və gözəlləşən doğma Bakımız



2

Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olub

# Gürcüstan: müharibəyə yox, tərəqqiyə



3

## Kənddən gəldik şəhərə: bəs sonra?



5

## Halloween: sevinc, yoxsa qorxu bayramı?



11

## Noyabr ayının qeyri-iş günləri açıqlandı



16

## Dağıdıcı müxalifət yeni təxribata hazırlaşır



14

## Torpağımız bizi niyə yedirdə bilmir?



8

# Müasirləşən və gözəlləşən doğma Bakımız

## Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olub



Bakı şəhərinin müasir görkəmi, onun simasının gündən-günə dəyişməsi, ürəkaçan mənzərəsi onun dünyanın ən gözəl şəhərləri ilə bir sırada adının çəkilməsinə səbəb olub. Bakının simasına yeni-yeni bənzərsiz naxışlar vurulub, gözəl park və xiyabanlar, geniş prospektlər, möhtəşəm və modern binalar, meydanlar və körpülər paytaxtımızın ayrılmaz atributları sırasındadır. Qədimlik və müasirliyin heyrətamiz harmoniyası şəhərimizə özünəməxsus yaraşıq verir. Paytaxtımız hərtərəfli gözəlləşir. Dünyanın qədim neft sənayesi mərkəzi olan paytaxt Bakı da qısa müddətdə ən iri şəhərlərdən birinə çevrilərək özünün təkrarolunmaz simasını əldə edib. Bakıda həyata keçirilən ardıcıl inkişaf prosesi şəhərimizin tarixi ilə müasirliyini özündə birləşdirərək onun tamamilə yeni bir simasını təqdim edir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları və göstərişləri ilə şəhərimiz daha da müasirləşir və gözəlləşir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub. Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır. Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb.



”Yaşıl dünya naminə həmrəylik ili”ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından əhəmiyyətlidir. Yeni parkın salınması gələn ay COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

### YENİ DÖVRÜNÜ YAŞAYAN PAYTAXTIMIZ

Bu gün hər sahədə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi, müdrik siyasəti dayanır. Azərbaycan həm bölgədə, həm də dünya miqyasında ən sabit və dinamik inkişaf edən ölkələrdən birinə çevrilib. Uğurlu inkişaf yolu keçən Azərbaycanın paytaxtı Bakı da bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Son illər Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar Azərbaycan dövlətinin inkişafına, onun sosial-iqtisadi bazasının yüksəlməsinə, regionların sosial-iqtisadi inkişafına, insanların rifah halının yüksəldilməsi istiqamətində islahatların həyata keçirilməsinə və s. yönəlmişdir. Bu Sərəncamlar dövlətin təməlinin daha da möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verir. Azərbaycanda insanların sağlamlığı, rahatlığı, firavan həyatı da daim diqqətdə saxlanılır.





Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə ölkəmizin hər yerində olduğu kimi, paytaxt Bakımızda da parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. ”Yaşıl dünya naminə həmrəylik ili”ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Qeyd edək ki, son zamanlar bu istiqamətdə görülən işlərin miqyası artıb. Bildiyimiz kimi, Azərbaycan Prezidenti bu yaxınlarda ”Xaqani” bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdu.

Bakının Səbail rayonunda yerləşən ”Xaqani” bağında və ətraf ərazilərdə abadlıq-yenidənqurma işləri aparılıb. Bakının Səbail rayonunda yerləşən ”Xaqani” bağının mövcud ərazisi genişləndirilib, istirahət guşəsinin ətrafındakı Rəsul Rza, Qoqol və Xaqani küçələrində avtomobil yolları ləğv edilərək piyadaların istifadəsinə verilib. Ümumi ərazisi 1,4 hektar olan bağın ərazisində yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb və ətrafda olan yaşayış binalarında təmir-bərpa işləri aparılıb. Bu, dövlətimizin başçısının Bakı şəhərində parkların, xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılan növbəti istirahət guşələrindən biridir. Şəhərin mərkəzində yerləşən bağda sakinlərin istirahəti üçün qısa müddətdə gözəl şərait yaradılıb.

Bu bağın Bakının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində istifadəyə verilməsi ölkəmizə gələcək turistlərin istirahətinin səmərəli təşkilində də xüsusilə əhəmiyyətlidir.

### ”YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ”NƏ TÖHFƏ

Paytaxtımızda ən müasir parklar və yeni yaşıllıq zolaqları salınır, Bakının qədim tarixi memarlıq nümunələri bərpa edilir və müasir binalar tikilib istifadəyə verilir. Bu işlərin hamısı şəhərə daha çox gözəllik və kolorit verir, məhz bunun sayəsində Azərbaycan paytaxtı insanların həyatı və asudə vaxt keçirməsi üçün rahat məkana çevrilir. Yeni parkların salınması və mövcud olanların yenidən qurulması, ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində tədbirlər də ətraf mühitin sağlamlaşdırılması işinə mühüm töhfə verir.

Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması da bu il COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır. Qeyd edək ki, ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb. Şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib. Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Mühəndis-kommunikasiya xətləri əsaslı şəkildə yenilənən park yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlərlə təmin edilib.

### ŞƏHƏRİMİZƏ XÜSUSİ GÖZƏLLİK VERƏN MƏKAN

Müasir parklardan olan Dədə Qorqud parkı da şəhərimizə xüsusi gözəllik verən məkanlardandır. 6 hektar ərazidə salınmış bu park paytaxtın ən böyük parklarındandır. Burada istirahət üçün hər cür şərait yaradılıb, yaşıllaşdırma işləri aparılıb, süni göl yaradılıb, müasir standartlara cavab verən işıqlandırma sistemi quraşdırılıb. Dədə Qorqud parkı həm də qədim Azərbaycan tarixinin və mədəniyyətinin açıq havada nümayişi meydanıdır. ”Kitabi-Dədə Qorqud” dastanı 1300 il yaşı olan, Azərbaycan xalqının tarixi keçmişini əks etdirən sənət abidəsidir. Dastanda xalqın vətənpərvərliyi, qəhrəmanlığı, müdrikliyi, tarixi keçmişi, mənəvi dəyərləri, oğuz türklərinin adət və ənənələri, Azərbaycan toponimləri əksini tapıb. Bu dastan dilimizin qədim incəliklərini, xalqımızın mədəniyyətini öyrənmək üçün əvəzolunmaz mənbədir. Parkın ərazisində sahəsi üç hektar olan süni göl və şəlalə yaradılıb.

Görülən işlər bir daha göstərir ki, Bakı artıq parklar ölkəsinə çevrilib. Bakı şəhərində 300-ə yaxın park, bağ və istirahət məkanları vardır və yeni parkların salınması, mövcud olanlarında isə əsaslı təmir-yenidənqurma prossesi davam edir.

Hər yerdə aparılan-abadlıq quruculuq işləri onun simasını köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib.

***Zümrüd BAYRAMOVA***

# Gürcüstan: müharibəyə yox, tərəqqiyə

## "Gürcü Arzusu"nun qələbəsi ABŞ və Aİ-nin hegemonluğuna "yox" deyir

***Şimali Atlantika Blokunun rəhbərlik etdiyi dünya dağılır və bunun ən bariz nümunəsi Gürcüstandır. Abxaziya və Cənubi Osetiyanı itirən ölkə ABŞ və Avropadan heç vaxt müdafiə almayıb. "Gürcü arzusu"nun qələbəsi Qərbdən son məsafədən xəbər verir. Ukrayna həqiqi azadlığa nail olmaq istəyirsə, buna diqqət yetirməlidir. Bu blokun lideri kimi ABŞ-ın layihələri bir-birinin ardınca pozulur. Şərqi Avropa, Yaxın Şərq, Mərkəzi Asiya, Hind-Sakit okean, Şimali və Mərkəzi Afrika, Sahel regionu və Latın Amerikasından sonra əsas geosiyasi əhəmiyyətə malik Cənubi Qafqazda Amerikanın xarici siyasəti axsamağa başlayıb.***



Unutmayaq ki, Gürcüstan indiki Ukrayna kimi 2008-ci ildə ABŞ-ın maraqları naminə Rusiya ilə müharibəyə getdiyi üçün parçalandı. Lakin Abxaziya və Cənubi Osetiyanı itirən Gürcüstan heç vaxt ABŞ və Avropadan dəstək ala bilmədi. Taleyin ümidinə buraxılan ölkə yavaş-yavaş özünə gələ bilsə də, Qərbdən uzaqlaşdı. Ölkənin bərpasının lokomotivi 2012-ci il aprelin 19-da milyarder iş adamı Bidzina İvanişvilinin təsis etdiyi "Gürcü arzusu - Demokratik Gürcüstan" partiyası oldu. Elə həmin il seçki uğurları sayəsində bu qüvvə koalisiya hökumətinin bir hissəsi oldu. Sonra 2016 və 2020-ci il seçkilərində təkbaşına qalib gəldi.



Nəhayət, "Gürcü arzusu" 2024-cü il oktyabrın 26-da keçirilən parlament seçkilərində Qərbin bütün anti-təbliğatlarına, eləcə də siyasi və iqtisadi müdaxilələrinə baxmayaraq, tarixi qələbə qazandı. Partiya ən yaxın rəqibindən beş dəfə çox səs toplayıb. Qərbyönlü Gürcüstan prezidenti Salome Zurabişvili isə seçkilərin nəticələrini tanımayacağını bildirib. Parisdə anadan olan və 2004-cü ildə vətəndaşı olmadığı Gürcüstanın baş diplomatı vəzifəsinə təyin olunan Zurabişvili prezident olana qədər uzun illər Fransa Xarici İşlər Nazirliyində, o cümlədən Fransanın Gürcüstandakı səfirliyində çalışıb.

Ona görə də Parisdə doğulmuş Zurabişvilinin hələ də Gürcüstanın düşdüyü reallıqla heç bir əlaqəsi olmayan fransız qadın olaraq qalması təəccüblü deyil. Orientalizmin tərəfdarı olan Zurabişvili Rusiyanın seçkilərə müdaxilə etdiyini bildirib və gürcü xalqını seçkilərin nəticələrinə qarşı çıxmağa və etirazlara qoşulmağa çağırıb. Lakin dərc olunan nəticələrə görə, "Gürcü arzusu" partiyası 54%, ən yaxın rəqibi isə cəmi 11% səs toplayıb. Bu böyük üstünlüyə baxmayaraq, Zurabişvili nəticələrin tanınmadığını bəyan edə bilər. Belə bir kinli münasibətlə o, kapitulyator və sui-qəsdçi zehniyyətini təmsil edir. Zurabişvili də, onu təyin edən imperialist dövlətlər də yaxşı bilirlər ki, gürcü xalqının iradəsini əks etdirən səsvermənin nəticələri Avropa və ABŞ-ın hegemonluğundan həlledici və yekun məsafədən xəbər verir. Ona görə də kapitulator təfəkkürün nümayəndələri Qərb sivilizasiyasının şərq qalası olan Gürcüstanın süqutundan travma alıblar. Dörd milyonluq əhalisinə baxmayaraq, Avropa ilə Asiyanın kəsişdiyi Gürcüstan böyük strateji əhəmiyyətə malikdir.

İndiyədək ABŞ və Avropa Gürcüstandan rəqiblərinə, xüsusən də Rusiya, Türkiyə və İrana qarşı cəbhə kimi istifadə ediblər. Bu, Qərb üçün əvəzolunmaz forpost idi. Lakin siyasət və strategiyalarını transformasiya edərək düşdüyü çuxurdan Qərbin sayəsində çıxmağı bacaran Gürcüstan bundan sonra imperialist layihələrin podratçısı və qurbanı olmayacağını bəyan edir. Bir sözlə, Ukrayna və digər imperialist marionetlərə də bunu arzulamaq qalır. Axı, yalnız Qərb qəyyumluğundan qurtula bilən ölkələr sabitlik, sülh və əmin-amanlıq tapacaq. Bunu bizə xatırladan ən konkret nümunə Gürcüstandır.



### Orbanın səfəri və...

Macarıstanın baş naziri Viktor Orban parlament seçkilərindən sonra Gürcüstana səfər edən ilk xarici dövlət başçısı olub. Səfəri zamanı o, səsvermənin bütün demokratik standartlara uyğun keçdiyini və Tbilisinin Avropaya can atmasının onda heç bir şübhə doğurmadığını vurğulayıb. Orban həmçinin Qafqaz respublikasının hakimiyyətini öz ölkələrinin Ukrayna yolu ilə getməsinə imkan vermədiklərinə görə təbrik edib. "Gürcüstan hökumətini ona görə təbrik etmək istərdim ki, indiki şəraitdə siz Avropayönlü siyasət apardığınız zaman ölkənizin başqa Ukraynaya çevrilməsinə imkan vermədiniz", - Macarıstan lideri bildirib. Onun sözlərinə görə, Budapeşt Tbilisinin sülhə sadiqliyini yüksək qiymətləndirir.

Orban həmçinin əmindir ki, 2030-cu ilin sonuna qədər Gürcüstan "mümkün olan ən yaxşı formada" Avropa İttifaqına daxil olacaq. Baş nazir xatırladıb ki, Gürcüstan Konstitusiyası ölkənin Avropaya inteqrasiya kursunu təsbit edir, ona görə də yerli hökumətin istəklərinə şübhə etmək "gülüncdür". "Biz müharibənin nə olduğunu bilirik, çünki bu, qonşu ölkədə baş verir. Biz sülhün nə qədər vacib olduğunu da bilirik. Macarıstan Avropada sülhsevər ölkədir və biz sizin səylərinizi həqiqətən yüksək qiymətləndiririk, çünki siz sülhün tərəfindəsiniz. Heç kim öz ölkəsini dağıtmaq, mənasız müharibəyə qarışmaq istəmir. Ona görə də biz gürcü xalqının sülh yolunda verdiyi və seçim etdiyi qərarı anlayırıq", - deyə Orban yekunlaşdırıb.

Öz növbəsində Gürcüstanın Baş naziri İrakli Kobaxidze qeyd edib ki, Tbilisi Budapeştlə macarlar və gürcülər arasında ənənəvi dostluq münasibətlərinə və ümumi dəyərlərə əsaslanan əməkdaşlıq edir. "Bildiyiniz kimi, bizim əsas xarici siyasət prioritetimiz Avropa İttifaqına inteqrasiyadır və təbii ki, bu baxımdan Macarıstan böyük əhəmiyyət kəsb edir. Bütün bu dövr ərzində Macarıstan Gürcüstanın Avropaya inteqrasiya yolunda güclü tərəfdarı olub və Macarıstan Gürcüstanın namizəd statusunu əldə etməsində çox mühüm rol oynayıb. Buna görə şəxsən mən cənab Orbana, eləcə də macar dostlarımıza, Macarıstan hökumətinə təşəkkür etmək istəyirəm. Təbii ki, biz gələcəkdə tərəfdarımıza ümid edirik", - Kobaxidze bildirib.

Bu arada Avropa Birliyinin aparıcı ölkələri və ABŞ Gürcüstan hakimiyyətini pisləyib. "Biz Gürcüstanın hakim rəsmilərini avtoritar liderlərin tərifləediyi siyasətləri gücləndirməkdənsə, Avro-Atlantik icma ilə qurmaq istədikləri əlaqələr haqqında düşünməyə çağırırıq. Gürcü xalqının 80%-dən çoxu ölkənin Aİ və NATO-ya inteqrasiyasını istəyir. Hazırkı hakim partiyanın təklif etdiyi və dəstəklədiyi Gürcüstan Konstitusiyası bu üzvlüyə - bu Avro-Atlantik qurumlara üzvlükə nail olmağı nəzərdə tutur. Bütün partiyalar bu məqsədi dəstəkləmək üçün kampaniya apardılar, lakin hakim partiya bu siyasətə uyğun olmayan tədbirlər gördü", - ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bildirib.

Eyni zamanda diplomat qeyd edib ki, "Gürcü arzusu" seçki prosesindəki çatışmazlıqları aradan qaldırsa, "antidemokratik qanunvericiliyi" ləğv edərsə və Aİ-nin Avropaya inteqrasiya ilə bağlı tövsiyələrinin həyata keçirilməsi üçün əhəmiyyətli səylər göstərərsə, Qərb tərəfdaşlarının mövqeyini yumşalda bilər. "Gürcüstan hökumətinin istiqaməti dəyişməsə, gələcək nəticələri istisna edə bilmərik", - Miller də qeyd edib.

Fransa, Almaniya, Çexiya, Danimarka, Estoniya, Finlandiya, İrlandiya, Litva, Hollandiya, Lüksemburq, Polşa, Portuqaliya və İsveçin xarici işlər nazirləri və Avropa məsələləri üzrə nazirləri "Gürcüstandakı mövcud vəziyyətdən dərin narahatlıqlarını" ifadə ediblər. ATƏT-in DTİHB-nin (Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun) hesabatından onlar avropalı müşahidəçilərin keçmiş seçkilərin legitimliyini tanıdıqları qeyd-şərtləri vurğulayırlar. "Beynəlxalq müşahidəçilər seçki kampaniyası zamanı, eləcə də seçki günü qanun pozuntuları barədə məlumat veriblər. Biz azad və ədalətli seçkilər üçün beynəlxalq standartların bütün pozuntularını pisləyirik. Biz onların narahatlıqlarını bölüşür və aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə şikayətlərin qərəzsiz araşdırılmasını tələb edirik. Bu çətin zamanda biz gürcülərin yanındayıq", - diplomatların birgə bəyanatında deyilir.

Bununla belə, Orban Gürcüstan hakimiyyətini dəstəkləyən yeganə Qərb siyasətçisi deyil. "Gürcü Arzusu qlobalizmə və müharibə ideologiyasına qarşıdır, ona görə də fon der Leyen və Soros onu devirmək istəyirlər", - Fransa parlamentinin deputatı Thierry Marian deyib. Eyni zamanda o, Gürcüstan hakimiyyətini rusiyapərəst adlandıranları dələduz hesab edir. Onun nöqteyi-nəzərindən Qafqaz respublikasının hakimiyyəti "Avropa İttifaqının səs-küyünün, qlobalizminin və hərbi siyasətinə" qarşı çıxan vətənpərvərlərdən ibarətdir. Həmçinin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "Gürcü Arzusu"nu qələbə münasibətilə təbrik edib. "Yaxşı ki, gürcü xalqının iradəsini ortaya qoyan seçkilər dinc və təhlükəsiz şəraitdə keçdi.

Bu arada Gürcüstan prezidenti Salome Zurabişvili Qərb ictimaiyyətini hakimiyyətin müxalifətə təhvil verilməsi üçün "Gürcü Arzusu"na təzyiqlərin artırılmasının zəruriliyinə inandırmaqda davam edir. Bir gündə o, 18 dünya mediasına müsahibə verib. "Seçici saxtakarlığına dair sübutlar toplanır və təsnif edilir. İndi bunun sistemli olduğunu sübut etmək üçün proses gedir", Zurabişvili təkid edir.

Politoloq, "Xalqın Gücü" partiyasının üzvü David Kartvelişvili bildirib ki, "qlobal müharibə partiyası"nın nümayəndələri bir milyondan çox gürcüsünün maraqlarını nəzərə almaqdan imtina edir və öz marionetlərini Gürcüstanda hakimiyyətə istənilən yolla gətirmək istəyirlər. Beləliklə, ABŞ və Aİ səfirlikləri Gürcüstanda keçirilmiş parlament seçkilərinə açıq şəkildə müdaxilə ediblər. Sanki Gürcü Arzusu tərəfdarlarının olmadığı kompüter oyununda iştirak edirlər. Onlar üçün yalnız Qərb kuklaları var ki, onlar çoxsaylı qeyri-hökumət təşkilatları vasitəsilə kukla ustaları ilə əlaqə saxlayırlar. Amma uduzdular, Qərbin də inadı tərəddüdlə əvəzlənib.

***V.VƏLİYEV***

# Bakıda növbəti ağacəkmə aksiyası keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva tədbirdə iştirak ediblər

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində oktyabrın 29-da Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə paytaxt Bakının Xətai rayonunda yerləşən "Gənclik" parkında növbəti ağacəkmə aksiyası həyata keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin və "IDEA" könüllülərinin, o cümlədən Avropa Azərbaycan Məktəbinin şagirdlərinin iştirakı ilə keçirilən ağacəkmə aksiyası zamanı 600 ədəd Eldar şamı əkilib.**

Qeyd edək ki, "Gənclik" parkı Heydər Əliyev Fondunun təşəbbüsü ilə salınıb. Ərazisi 43 hektar olan parkda yaşıllıq zolaqları ilə yanaşı, əyləncə və istirahət sahələri yaradılıb. Eyni zamanda, tədbir zamanı "IDEA" İctimai Birliyinin "Şəhər ekologiyası"("Urban Ecology") layihəsi çərçivəsində "Gənclik" parkında mövcud olan yaşıllıq sahəsinə Bakı Zooloji Parkında çoxaldılmış 20 sincab buraxılıb. "Şəhər ekologiyası" layihəsi şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunmasına və qaytarılmasına yönəlib. Sincabların məhz bu əraziyə buraxılmasında digər məqsəd onların "Gənclik" parkı ərazisində təbii şəkildə çoxalmasıdır.











Keçmişdə Bakı şəhəri ərazisində çoxsaylı sincab və tutuquşular məskunlaşıb, onlar parklarda, yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıb. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdı. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də "IDEA" İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb.

"IDEA" İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir.

Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şikayət və təkliflərini şəhər və ya mobil telefonlardan 1113 qaynar xətt vasitəsilə "IDEA" İctimai Birliyinə çatdıra bilərlər.

Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" "qaynar xətt"i və mobil qrupu 2014-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən "qaynar xətt"ə daxil olmuş minlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.

# Kanada mətbuatı ABŞ-ı müttəfiqlərinə qarşı nankorluqda ittiham edib



**ABŞ Konqresinin Nümayəndələr palatasından Adam Şiff bu yaxınlarda həmin ölkədəki Azərbaycana məxsus aktivləri hədəfə alan və onları İkinci Qarabağ müharibəsində, eləcə də sonrakı hərbi əməliyyatlarda köçən ermənilərə vermək məqsədi güdən qanun layihəsini Konqresə təqdim edib. Bu, Amerikanın öz müttəfiqinə xəyanət etdiyi ilk hal deyil.**

Tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham Kanadanın populyar "THEJ.CA" nəşrində işıq üzü görmüş "Amerikanın qərəzli baxışları" sərlövhəli məqalədə Birləşmiş Ştatların İsrailə münasibətdə hazırkı siyasətini qeyri-səmimi, qarşılıqlı etimaddan məhrum kimi dəyərləndirib. Müəllif Azərbaycanın da bu baxımdan layiq olmadığı analoji ədalətsiz münasibətlə üzləşdiyinə diqqət çəkib.

Onun fikrincə, vaxtilə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymamış Ermənistanın Qarabağı və Azərbaycanın 7 rayonunu otuzillik işğalı nəticəsində qaçqın vəziyyətinə düşmüş bir milyona yaxın azərbaycanlı üçün analoji kompensasiya paketi təklif etməməsi amerikalı konqresmenin təşəbbüsünün qüsurlarındandır.

Həmçinin qeyd olunub ki, Azərbaycanın Yaxın və Orta Şərqdə dini radikalizm və terrorizmlə mübarizədə Qərbin sadiq müttəfiqi olmasının, Amerika qoşunlarının Əfqanıstandan təhlükəsiz şəkildə çıxmasına kömək etməsinin müqabilində bu qanunvericilik təşəbbüsünün irəli sürülməsi təəccüb və heyrət doğurur.

Müəllifin qənaətinə görə, ABŞ-ın bu cür davranışı əxlaqi baxımdan qınanılmalı hərəkətdir. Məqaləni ətraflı şəkildə linkə keçid edərək oxumaq mümkündür.

# Kənddən gəldik şəhərə: bəs sonra?

***Urbanizasiya dünyanın bir çox yerində sürətlə artan prosesdir. İnsanlar könüllü, ya könülsüz, özündən asılı olan və ya olmayan səbəblərdən kənd yerlərini tərk edərək şəhərlərdə məskunlaşırlar. Şəhərlərə bu sürətli köçün ən əsas və təməl səbəblərindən işsizlikdir. Rayon və kəndlərdə artan işsizlik nisbəti paralel olaraq şəhərlərdəki yüklənməni də artırır. Beləcə, kəndlərin boşalması fonunda gedən sürətli urbanizasiya zamanla şəhərlərin dolubdaşması, nəqliyyatın çoxalması, istixana qazı emissiyalarının artması deməkdir. Sürətli urbanizasiyanın əsas problemlərindən biri şəhər yerlərində ətraf mühitin keyfiyyətinin getdikcə aşağı düşməsidir.***



Şəhərlərdə avtomobillərin sayı artdıqca istixana qazı emissiyaları ətraf mühitin keyfiyyətinə mənfi təsir göstərir. Urbanizasiya və nəqliyyat faktorlarının ekoloji problemə təsirlərinin azaldılması istiqamətində konkret nəticə əldə etmək olmur. Çünki əhali ilə bərabər nəqliyyat da durmadan artır. Kəndlərdə maddi sıxıntı, dolanışıq problemləri yaşayanlar çıxış yolunu şəhərə köç etməkdə görür. Problemin həlli üçün rayonlara ciddi kapital qoyulmalı, fabrik-zavod inşa edilməli, iş imkanları yaradılmaldır.

Əhalinin artması və sənayeləşmə nəticəsində yaranan urbanizasiya stres, səs-küy və kirayə qiymətlərinin artması kimi sosial-iqtisadi təsirlərə səbəb olur. Durmadan böyüyən şəhərlərdə ətraf mühitin, hava və suyun çirklənməsi ekoloji problemlərin böyüməsinə gətirib çıxarır. Plansız və qeyri-müntəzəm urbanizasiyanın təbiətə mənfi təsirləri havanın çirklənməsi, suyun zəhərlənməsi və torpağın məhv edilməsidir. Torpağın məhv edilməsi isə həyatın bütünlüklə məhvi deməkdir. Necə ki, biz bunu yaşıllıqların getdikcə azalması ilə müşahidə edirik.



Şəhərlərdə kifayət qədər mənzil və iş imkanları olmadığı təqdirdə kənd yerlərindən şəhərlərə miqrasiya şəhərlərə mənfi təsir göstərir. Şəhərlərdə intensiv miqrasiya, plansız urbanizasiya, artan əhali və bunun fonunda cinayət nisbətləri, infrastruktur, nəqliyyat problemləri və işsizlik kimi çox sayda problemlərə səbəb olur. Urbanizasiya ilə cəmiyyətdə sosial və iqtisadi müstəvilərdə dəyişikliklər baş verir. Bu vəziyyəti hətta inkişaf etmiş dövlətlərin yüksək urbanizasiya sürətində və sosial inkişaf səviyyəsində görmək mümkündür. Urbanizasiya prosesi nəzarət altında, planlı şəkildə həyata keçirilərsə yaxşı nəticə əldə etmək olar. Şəhərin planının doğru hazırlanması, prospekt və küçələrin planlı salınması, planlaşdırılmamış bina tikintisi, yanlış infrastruktur və ya infrastrukturun ümumiyyətlə olmaması, nəqliyyatdakı problemlər də urbanizasiya problemlərindəndir.

Yaşıl şəhərlərin planlaşdırılması və tikintisində beynəlxalq meyarlar və onlara nəzarət edən sistemlər müasir şəhərlərdə mövcud olan problemləri aradan qaldırmaq üçün hazırlanır. Nəqliyyat müasir şəhərlərin ən mühüm problemləri arasında həmişə birinci yerdədir. Bu gün Bakıda nəqliyyat probleminin ciddi planlaşdırma problemi olduğu da gün kimi aydındır. Xüsusilə makro miqyaslı şəhərsalmada, yeni şəhər ərazilərinin ictimai nəqliyyata yaxınlığı, bina istifadəçilərinin maşın sürməyə ehtiyac olmadan bir çox sosial obyektlərə piyada gedə bilməsi, yaxınlıqda məktəb, xəstəxana, bağça mağaza kimi vacib obyektlərin olması şərtdir.

Şəhərləşmə nəticəsində artan binalar və onlarla əlaqəli infrastrukturlar yaxşı planlaşdırılmadıqda betonlaşmanın miqyası artır və yaşıllıq sahələri azalır. Belə olan halda insan həyatında mühüm yeri olan təbiətlə təmas getdikcə azalır, bitki və heyvan növləri azaldıqca biomüxtəliflik itirilir. Həmçinin yağış sularının udulması, həddindən artıq istiləşmənin qarşısının alınması istiqamətində yaşıllığın əhəmiyyəti böyükdür. Xüsusilə yaşıllıqların azalması, tikintinin çoxalması şəhər yerlərində güclü yağış, daşqınlara səbəb olur, can və mal itkiləri baş verir.

Bu gün şirin su ehtiyatlarının tədricən azalması onu göstərir ki, əhalinin artması ilə gələcəkdə suya çıxışın əhəmiyyəti də tədricən artacaq. Azərbaycan su ehtiyatlarına görə yoxsul ölkələr sırasındadır, ölkəmizin su ehtiyatlarının 2050-ci ilə kimi 15-20 faiz azalacağı gözlənilir. Araşdırmalara görə, bizim yerüstü su ehtiyatımız orta illik 32,3 mlrd. kubmetrdir. Quraqlıq illərdə isə bu göstərici 23 mlrd.kubmetrə qədər azalır. Ölkədə adambaşına orta illik 3800 kubmetr su düşür. Deməli, şəhərlərdə artan əhali bu resurslardan səmərəli istifadə etməlidir. Yeni dünya standartlarına uyğun tikilmiş yaşıl binalar səmərəli su qurğuları ilə təmin edilir, yağış suyu kimi alternativ su mənbələrinin təkrar emalı həyata keçirilir, bu yolla suyun daha səmərəli istifadəsini təmin edir. Beləliklə, standart binalarla müqayisədə 10% -dən 45% -ə qədər su səmərəliliyi əldə edilir.

Enerji təhlükəsizliyi və yüksək enerji xərcləri də müasir şəhər həyatında həm iqtisadi, həm də ekoloji baxımdan bir çox problem yaradır. Yaşıl binalarda enerji səmərəliliyi ilə bağlı bir çox məsələlər araşdırılır. Bu kontekstdə səmərəli bina kondisioner sistemləri, işıqlandırma sistemləri, istilik izolyasiyası və enerjinin avtomatlaşdırılması kimi məsələlər ön plana çıxır. Həmçinin bərpa olunan enerji mənbələrini təşviq etməklə zərərli emissiyaların qarşısının alınması planlaşdırılır. Bu, enerji xərclərini iqtisadi cəhətdən azaldır, eyni zamanda havanın çirklənməsinin və qlobal istiləşmənin azaldılması istiqamətində mühüm addımdır. Enerji səmərəliliyi könüllülük əsasında yalnız özəl sektorun ixtiyarına buraxılmayacaq qədər vacib bir məsələdir, bu həm dövlət, həm də ictimaiyyət tərəfindən tənzimlənməli və müntəzəm olaraq nəzarət edilməlidir.

Bu gün şəhərlərdə yaşayan insanların həyatının orta hesabla təxminən 90%-i binalarda keçir. Binaların və şəhərlərin dizaynında insan sağlamlığı və rahatlığı ilə bağlı bir çox məsələlər standartdır. Normal standartlarda tikilən binalarda yaşayan və işləyən insanların daha çox gün işığından faydalanması, daha çox təmiz hava alması, zərərli kimyəvi maddələrə daha az məruz qalması, daha işıqlı və daha az səs-küylü şəraitin yaradılması kimi standartlara əməl edilir. Lakin rabitəsiz, plansız tikilən bir çox binalarda bu standartlar nəzərə alınmır, günəş görməyən, işıq düşməyən, izolyasiyası olmayan binalar tikilib istifadəyə verilir.

Yeni tikililərin struktur təkmilləşdirilməsi ilə yanaşı, həmin regionun ekoloji inkişafı üçün ərazidə yaşayan, imkanlarından istifadə edənlərin sağlamlığı və rahatlığı, habelə sosial obyektlər, dövlət qurumları və təhsil müəssisələri ilə rahat təmas şərtdir. Binalar tikilərkən bu xırdalıqlara əhəmiyyət verilməli, sağlam, stressiz mühit təmin olunmalıdır.

***Lalə Mehralı***






# Azərbaycan COP29 ərəfəsində

## Beynəlxalq aləmin diqqəti yenidən Bakıda

Müasir dövrün çağırışlarına cavab verən çox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edən Azərbaycan qlobal və regional sabitliyə töhfəsini verir. Yaxın günlərdə qlobal problemlərin mənfi təsirlərinin getdikcə artdığı, bəşəriyyəti ciddi şəkildə narahat etdiyi zamanda paytaxt Bakı COP29 kimi mötəbər tədbirə ev sahibliyi edəcəkdir. COP29-un Bakıda keçirilməsi qərarı Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi ifadə edir, yaşıl enerji növlərinin yaradılmasını və dünya bazarına nəqlini enerji siyasətinin prioritet istiqaməti kimi göstərir. Belə bir tədbirin qlobal ekoloji təhlükəsizliyin təmin olunmasının vacibliyindən irəli gəlir. Bu günə qədər Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünə cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Paytaxtımızda Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumları müxtəlif ölkələrin təmsilçiləri və fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin etmək kimi böyük bir missiyanı həyata keçirib. Qlobal Bakı Forumu hər il müxtəlif mövzu və devizlə dünyanın aktual problemlərinin müzakirə olunduğu mühüm platforma kimi qəbul edilib. Əlbəttə ki, paytaxtımızda təşkil olunan beynəlxalq tədbirlərdə müzakirə olunan mövzularla bağlı tanınmış və nüfuzlu şəxslərin fikir mübadiləsi aparmaları bölgəmizin və dünyamızın ehtiyac duyduğu geniş üfüqlər açan düşüncələri ortaya qoyur. Bu və ya digər məsələlərin həll yolunu tapmaq üçün dünyanın cəm olunduğu Bakı təhlükəsizliyin, sabitliyin, proqnozlaşdırmanın və əməkdaşlığın təmin edilməsində mühüm məkandır.

### ”APARDIĞIMIZ SİYASƏT NƏTİCƏSİNDƏ DÜNYA MİQYASINDA ÇOX GÜCLÜ MÖVQELƏRƏ SAHİB OLMUŞUQ”

Prezident İlham Əliyevin həyata keçirdiyi fəal praqmatik siyasət, dünya miqyasında nüfuzlu siyasətçi imici, liderlik xüsusiyyətləridir ki, bu gün ölkəmiz böyük nüfuza sahibdir. Azərbaycanın artan beynəlxalq rolu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynayır. Əlbəttə ki, müasir dünyanı narahat edən məsələlər məhz bu tədbirlərdə müzakirə olunur. Dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından, COP29-un əhəmiyyəti böyükdür. Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürüdür. ”COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.” Bu fikirləri ötən ilin dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə dövlət başçımız bildirib.

### ”BEYNƏLXALQ BİRLİK DÜNYANIN BÜTÜN ÖLKƏLƏRİDİR VƏ BU ÖLKƏLƏR YEKDİLLİKLƏ AZƏRBAYCANA ÖZ BÖYÜK DƏSTƏYİNİ GÖSTƏRMİŞDİR”

Əlbəttə ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Təbii ki, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir. İlk növbədə ölkəmizə gələn qonaqlar inkişafı öz gözləri ilə görmək imkanı qazanır, daha sonra isə bu haqda ətraflı məlumatlanırlar. Bu cür tədbirlər eyni zamanda ölkəmizin beynəlxalq imicinə də müsbət təsir edir. Azərbaycan artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Bu, tədbir Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Cənab Prezident çıxışlarının birində bildirdiyi kimi, beynəlxalq birlik 30-40 ölkə deyil: ”Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir. İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik”.

### İQLİM DƏYİŞMƏLƏRİNİN QARŞISININ ALINMASI İSTİQAMƏTİNDƏ BİRGƏ SƏYLƏR VƏ ÇAĞIRIŞLAR

Vurğulayaq ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

Bildiyimiz kimi, COP-28-in gündəliyinə böyük maraq var idi. Buna görə də belə bir tədbirin keçirilməsində ölkəmizin üzərinə çox böyük məsuliyyət düşür. Belə böyük tədbirin keçirilməsi çox məsuliyyətli və çox maraqlı bir proses olacaq. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır.

### ÖLKƏMİZİN, XALQIMIZIN NÖVBƏTİ BÖYÜK UĞURU

Xatırladaq ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in ötən ilin dekabrın 11-də keçirilən plenar iclasında verilib. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. ”Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, - deyə Prezident bildirib.

1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulan Azərbaycan beynəlxalq ekoloji təşəbbüslərdə mühüm rol oynayıb. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanır.

Azərbaycanda ətraf mühitin qorunması, mühafizəsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə yaşıllıq sahələrinin artırılması baxımından davamlı işlər görülür. Ətraf mühitin mühafizəsi, insanların ekoloji sağlam mühitdə yaşaması və təbii sərvətlərdən əhalinin rifahının yaxşılaşdırılması üçün səmərəli istifadə edilməsi ölkədə aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir. Rəsmi məlumatlara istinadən deyə bilərik ki, 2023-cü ildə əvvəlki illə müqayisədə ətraf mühitin mühafizəsinə çəkilmiş xərclər 2,9 dəfə artaraq 677,4 milyon manat təşkil etmişdir. Bu vəsaitin 595 milyon manatı ətraf mühitin mühafizəsinə və təbii sərvətlərdən səmərəli istifadə üzrə əsas kapitala yönəldilmiş, 56,3 milyon manatı ətraf mühitin mühafizəsinə çəkilən cari xərclərdən ibarət olmuş, 26,1 milyon manatı isə meşə, qoruq və milli parkların saxlanmasına, vəhşi heyvanların, balıqların mühafizəsinə və çoxaldılmasına xərclənmişdir. 2023-cü ildə ölkədə stasionar mənbələrdən atmosfer havasına atılmış çirkləndirici maddələrin həcmi 2022-ci illə müqayisədə 8,8 faiz azalıb. Son illərdə elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində 2023-cü ildə ölkədəki hibrid avtomobillərinin sayı 2022-ci illə müqayisədə 11917 ədəd və ya 39,5 faiz, elektrik mühərrikli avtomobillərin sayı isə 2542 ədəd və ya 5,5 dəfə artıb.

### ”TƏMİZ ƏTRAF MÜHİT VƏ YAŞIL ARTIM ÖLKƏSİ”

Məlumdur ki, ötən il dekabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncam imzalamışdır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası ”yaşıl enerji zonası” elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə ”ağıllı şəhər”, ”ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Azərbaycanın davamlı iqtisadi inkişafını nəticəsində COP29 kimi nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi üçün ölkəmizdə zəruri infrastruktur yaradılmışdır. Müasir standartlara cavab verən avtomobil və dəmir yolları, hava limanları şəbəkəsi, mehmanxanalar, konfrans mərkəzləri və s. COP29-un yüksək səviyyədə təşkilində önəmli amillərdir. Cənab Prezidentin bildirdiyi kimi, COP29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün əlimizdən gələni edəcəyik.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan - Gürcüstan
## münasibətlərində yeni inkişaf mərhələsi

### Prezident İlham Əliyev: "İnanıram ki, seçkilərin nəticələri Gürcüstanın hərtərəfli inkişafına və çiçəklənməsinə xidmət edəcəkdir"



***Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Əlbəttə, hər iki dövlət arasında siyasi-iqtisadi münasibətlərin indiki səviyyəyə gəlib çatmasında Azərbaycan və Gürcüstan xalqları arasında tarixən mövcud olan sıx əlaqələr, mehriban qonşuluq münasibətləri mühüm baza rolunu oynayıb. Son illərdə isə ölkələrimiz arasında mehriban dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsi hər iki dövlətin parlaq gələcəyinin təmin olunması üçün möhkəm əsas yaradıb.***

Bu günlərdə Gürcüstanda keçirilən parlament seçkiləri bu ölkənin gələcəyi üçün həlledici anlardan biri oldu. Gürcüstan və Azərbaycan arasında mövcud olan birlik, hər iki dövlətin gücünü artırmaqla yanaşı, onların regional və beynəlxalq arenalarda daha möhkəm mövqelərdən çıxış etmələrinə imkan verir. Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə Azərbaycan Prezidenti İlham Əliyevin təbrik məktubu əlaqələrin dostluq və etimada əsaslandığını bir daha göstərir: "Gürcüstanda keçirilmiş parlament seçkilərinin nəticələri və ölkənizin aparıcı siyasi qüvvəsi olan "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qələbəsi münasibətilə Sizi ürəkdən təbrik edirəm", - deyə Prezident təbrikində bildirib: "Bu səsvermə vasitəsilə Gürcüstan vətəndaşları inkişafa, sabitliyə və ənənəvi dəyərlərə öz dəstəyini ifadə etdilər. İnanıram ki, seçkilərin nəticələri Gürcüstanın hərtərəfli inkişafına və çiçəklənməsinə xidmət edəcəkdir".

Dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Dövlətlər arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Bu münasibətlər çox dərin ənənələr üzərində qurulub. Əsrlər boyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşayıblar.

**"İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ QAYDADA QARŞILIQLI FAYDALI FƏALİYYƏTİMİZİN MÜVƏFFƏQİYYƏTLƏ DAVAM ETDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ BUNDAN SONRA DA BİRGƏ SƏYLƏR GÖSTƏRƏCƏYİK"**

Dövlətimizin başçısı bildirib ki, eyni zamanda, seçkilərin nəticələrinin tarixən dostluq, qardaşlıq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Gürcüstan dövlətlərarası əlaqələrinin davamlı inkişafına, Cənubi Qafqazda və daha geniş coğrafiyada ölkələrimizin mövqelərinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamımı ifadə edirəm: "Siyasi dialoqumuzu davam etdirmək üçün Sizi münasib vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm. Əminəm ki, ölkələrimizin və xalqlarımızın firavanlığı, regionumuzun rifahı və təhlükəsizliyi naminə strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı fəaliyyətimizin müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik. Sizə ən xoş arzularımı çatdırır, dost Gürcüstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm".

Azərbaycan-Gürcüstan münasibətləri daim yüksək səviyyədə olub. Dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. 2022-ci ildə münasibətlərimizin 30-cu ildönümü qeyd olunub. Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri ötən illər ərzində dinamik inkişaf edib, ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Dövlətlərarası əlaqələr də bu möhkəm təməl üzərində qurulubdur. Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıbdır. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli formatda. Bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır".

**AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ ÜÇÜN BÖYÜK TÖHFƏ**

Azərbaycan ilə Gürcüstan arasında iqtisadi sahədə də münasibətlər yüksək səviyyədədir. İqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya 2004-cü ildən etibarən fəaliyyət göstərir. Komissiyanın mütəmadi olaraq iclasları keçirilir. Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Ölkələrimiz arasında birgə icra olunan layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır. Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir.

Azərbaycan-Gürcüstan əməkdaşlıq əlaqələri Avropa ölkələrinin enerji təhlükəsizliyinə böyük töhfələr verməkdədir. Dövlət başçımızın qeyd etdiyi kimi, hazırda Azərbaycan və Gürcüstan birgə səylərlə nəinki öz iqtisadi inkişafını təmin edir, eyni zamanda, region üçün və geniş mənada Avrasiya üçün də önəmli ölkələrə çevriliblər. Birgə həyata keçirilən infrastruktur layihələr, xüsusilə də nəqliyyat və enerji layihələri bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir. "Azərbaycan və Gürcüstan arasında mövcud olan dostluq əlaqələri və enerji sahəsində əməkdaşlıq Avropanın enerji təhlükəsizliyi üçün böyük töhfədir", - deyə Prezident bildirmişdir.

Energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün ölkələrimizi birləşdirən "Yaşıl enerji dəhlizi" layihəsidir. Burada da Azərbaycan və Gürcüstan Avropa ölkələri ilə sıx əməkdaşlıq edirlər. Ən əsası, həm Gürcüstanın, həm Azərbaycanın çox böyük bərpaolunan enerji potensialı var və bu potensial ölkələrimizin inkişafına böyük töhfələr verəcək. Bu gün Azərbaycanla Gürcüstan arasında siyasi, iqtisadi, ticari, mədəni və bir çox digər sahələrdə əməkdaşlıq nünasibətləri dinamik inkişaf edir. Azərbaycan şirkətləri qonşu dövlətə ciddi sərmayə yatıran şirkətlər sırasında olmaqla, həm də bu ölkədə ən böyük vergi ödəyiciləridir.

**"AZƏRBAYCAN VƏ GÜRCÜ XALQLARI XOŞBƏXTDİRLƏR Kİ, ONLAR QONŞU XALQLARDIR"**

İki ölkə arasında münasibətlərə nəzər salarkən, humanitar sahədə əməkdaşlığı xüsusilə vurğulamaq lazımdır. Bu sahədə əməkdaşlıqdan danışarkən Heydər Əliyev Fondu tərəfindən Gürcüstanda həyata keçirilən çoxsaylı layihələri xüsusi vurğulamaq lazımdır. Paytaxt Tbilisidə Ümummilli Lider Heydər Əliyevin adını daşıyan böyük küçə, park və abidə var. Bu, bir daha göstərir ki, Ulu Öndər Gürcüstanla əlaqələrə necə böyük önəm verib. Ümummilli Lider iki ölkənin xalqları arasında əlaqələri belə xarakterizə etmişdi: "Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək".

Gürcüstanda, həmçinin azərbaycanlılara aid Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrı, "ERA Teatrı" və "Beez" Uşaq teatrı fəaliyyət göstərir. Tbilisidə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi də mövcuddur. Bu muzey M.F.Axundzadənin, C.Məmmədquluzadənin və N.Nərimanovun ev-muzeylərini özündə birləşdirir.

Ölkələr arasında regionlararası əməkdaşlıq həmçinin yüksələn xətlə davam edir. Belə ki, iki ölkənin bir sıra şəhərləri arasında birbaşa əməkdaşlıq əlaqələri qurulub. Azərbaycan ilə Gürcüstanın bir sıra şəhərləri arasında "qardaşlaşma" əlaqələrinə dair müvafiq memorandumlar imzalanıb: Gəncə-Kutaisi (1995-ci il), Sumqayıt-Rustavi (2007-ci il), Naxçıvan-Batumi (2012-ci il), Şəki-Telavi (2012-ci il), Bakı-Tbilisi (2021-ci il), Şəmkir-Marneuli (2022-ci il), Ağstafa-Qardabani (2022-ci il), Göygöl-Bolnisi (2022-ci il), Daşkəsən-Dmanisi (2022-ci il).

Ölkələrimiz arasında əlaqələrin və əməkdaşlığın inkişaf dinamikası onu deməyə əsas verir ki, Azərbaycan-Gürcüstan münasibətləri gələcəkdə daha da genişlənəcək və yeni sahələri əhatə edəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# ABŞ-da seçki kampaniyası necə gedir?



*Xarici media*



Kamala Harris Vaşinqtonda "yekun sözlər"lə çıxış edib. Seçkilərə düz bir həftə qalmış Ağ Evdə böyük mitinq keçirilib. Onun adı siyasətçinin Kaliforniyanın baş prokuroru olduğu vaxta aiddir. Məhkəmədə olduğu kimi,




seçkiqabağı çıxışında da Donald Trampa qarşı ittihamlar səsləndirib. Bu arada namizədlərin şansları bərabərdir, Harris Reuters və Ipsos-un sorğusunun nəticələrinə görə rəqibini cəmi 1% qabaqlayır. Vitse-prezident Kamala Harris mitinqi üçün Ağ Evin yaxınlığındakı Ellips Parkını seçib: o, 6 yanvar 2021-ci ildə Kapitoliyə hücum etməzdən əvvəl rəqibinin minlərlə tərəfdarı qarşısında çıxış etdiyi yerdə böyük tamaşaçı kütləsi qarşısına çıxıb.

The Washington Post yazır ki, Harris Donald Trampın təhlükəsini belə təsvir edib. Kamala onu "xırda tiran", "qeyri-sabit", "intiqam almağa meylli" və "gizli-kədərli" adlandırıb. Qəzet ondan sitat gətirir: "Donald Tramp on ildir ki, Amerika xalqını parçalanmış və bir-birindən qorxmuş vəziyyətdə saxlayıb. Amma biz belə deyilik. Söz verirəm ki, hamı üçün prezident olacağam".

Politico yazır ki, şəhərətrafı ərazilər Harrisin yararlandığı yerlərdir. Sakinlər, kollec təhsilli seçicilər Demokratlara doğru sürüklənir, respublikaçılar isə kiçik şəhərlərdə mavi yaxalı seçicilər arasında rəğbət qazanır. Harrisin qaradərililər, ispanlar və gənclər arasında zəifliyini kompensasiya etmək üçün kifayətdir.

The Hill qeyd edir ki, Demokrat Partiyasının namizədi vəfasızlıq nümayiş etdirmədən Co Baydendən uzaqlaşmağa çalışır. 2020-ci il COVID-19 pandemiyasını mövcud çağırışlarla müqayisə edərək Harris vurğulayıb: "Mənim prezidentliyim fərqli olacaq, çünki indi problemlər fərqlidir". Bu ağıllı hiylə Amerika liderinin şərhlərinə görə yeni qalmaqalın kölgəsində qalıb. Demokrat fəallarla video vasitəsilə danışan Bayden Tramp tərəfdarlarını "zibil" adlandırıb. Prezident Puerto Riko ilə bağlı irqçi zarafata belə cavab verib: Respublikaçıların mitinqində çıxış edən komediyaçı ərazini "üzən zibil adası" adlandırıb. "Gördüyüm yeganə zibil onun tərəfdarlarıdır" deyə Bayden çıxışını tamamlayıb. Bunu dərhal Trampın müttəfiqləri diqqətə alıblar və dövlət başçısını ölkənin yarısını "zibil" adlandırdığı yerdə ittiham ediblər. Prezident daha sonra səhv danışdığını anlayıb və əlavə edib ki, mən insanları yox, ritorikanı nəzərdə tuturam. Bu arada, Tramp Pensilvaniyadakı mitinqdə çıxış edərək Puerto-Rikolulara sevgisini etiraf edib: "Onları məndən çox heç kim sevmir", "The Guardian" onun sözlərini sitat gətirir. Ümumiyyətlə, onun çıxışı şəxsi hücumlar, şikayətlər, anti-immiqrant ifadələri və bir qədər siyasətin qarışığı idi.

**VƏLİ**



**Elçin Bayramlı**

# Torpağımız bizi niyə yedirdə bilmir?

***Son illərdə kənd təsərrüfatı bazarlarında və ərzaq mağazalarında müşahidə olunan qeyri-stabil qiymətlər həm istehsalçılar, həm də istehlakçılar üçün problem yaradır. Bu tendensiya özlüyündə daha ciddi problemin carçısıdır- ölkənin aqrar sektoru ərzaq təhlükəsizliyini hələ ki, təmin edə bilmir. İdxalından asılılıq təxminən 50 faiz civarında qalır. Baxmayaraq ki, dövlət tərəfindən aqrar sektora böyük dəstək verilir, milyardlarla investisiya qoyulur, subsidiyalar və güzəştlər verilir. Deməli, aqrar sahədə fundamental islahatların aparılması vacibdir.***

Problemin bir neçə səbəbi var. Əsas məsələ həm də ondadır ki, Azərbaycanda planlı təsərrüfat sistemi tətbiq olunmur. İndi kim nə istəyirsə, onu əkir. Bir il bir məhsul az əkilir, digəri çox. Bir məhsul bir il həddən artıq bol olanda onu əkənlər ucuz satmalı olurlar və ziyana düşürlər. Həmin il hansısa məhsul az əkilibsə, onun qiyməti xeyli baha olur. Bu səbəbdən də kənd təsərrüfatı mallarının qiymətləri stabil olmur. Burada həm əkinçilər zərərə düşür, həm də istehlakçılar. Hansısa məhsul az əkiləndə həmin məshulun xaricdən böyük həcmdə idxalı baş verir ki, bu həm baha başa gəlir, həm ölkədən valyuta çıxır, həm də idxal olunan GMO məhsullar əhalinin sağlamlığına zərər vurur.

Bütün bunlar aydın şəkildə göstərir ki, aqrar təsərrüfatı dövlət planlaşdırmalıdır. Sovet dövründə belə idi, ona görə də, respublikada hansı məhsuldan nə qədər tələbat varsa ən azı o qədər əkilirdi. O vaxt aqrar sektora elmi yanaşılırdı. Məsələn, iqlim, torpaq fondu və sair faktorlar nəzərə alınmaqla hansı regionlarda nə əkmək daha yaxşı effekt verirdisə, orada həmin məhsullar əkilirdi. Ona görə də aqrar sektorda yüksək nəticələr əldə olunurdu. İndi isə, kim harda nə gəldi əkir. Bu da bir çox hallarda zərərlə başa çatır.

Əsas ərzaq məhsulları növləri üzrə planlaşdırmadan əlavə, həm də regional planlaşdırma olmalıdır. Hər zonanın öz spesifik xüsusiyyətləri var, bunlara uyğun olaraq həmin zonada hansı növ bitkilər əkilməsi, hansı növ heyvandarlığın inkişaf etdirilməsi müəyyən edilməlidir. Dövlət mütləq burada iştirak etməli, planlaşdırmanı (stimullaşdırma yolu ilə) təşkil etməli, maliyyə dəstəyi verməlidir. Məsələn, kimsə kartof əkmək istəyirsə, o bilməlidir ki, nə qədər tələbat var. Tələbat olacaqsa, o əkməlidir, yoxdursa, əkməməlidir.

Hazırda əkinçilər bilmir ki, bu il respublikada hansı məhsullar çox əkiləcək. Çünki belə bir məlumat onlarda yoxdur. Bu cür məlumatlar ancaq dövlətdə ola bilər- Kənd Təsərrüfatı Nazirliyində. Nazirlik istehsalçıları elə yönləndirə bilər ki, həmin ildə bütün vacib məhsulların əkinləri uyğun həcmdə olsun. Bu halda, misal üçün, hər hansı məhsul bir il 5 manat, o biri il 1 manat olmaz.

Bir mövsümdə hansısa məhsuldan həddən çox əkilməsi ilk baxışda bazarda həmin məhsul üzrə bolluq və ucuzluq yaratsa da, digər hansısa məhsulların baha olmasına gətirib çıxarır. Bu, həmin il aqrar istehsalçıların bir qrupuna faydalı olur, ancaq digər qrup zərərə düşür və bezib əkinçilikdən əl çəkir. Yekun nəticədə ölkə idxaldan asılı qalır və növbəti illərdə daha baha və keyfiyyətsiz məhsul almalı olurlar.

Daha bir problem isə bazarlardakı alverçi qrupudur. Belə ki, paytaxtda və digər şəhərlərin bazarlarında kənd təsərrüfatı məhsullarını əsasən alverçilər satır. İstehsalçının bazara girişi məhduddur, alverçilər ondan məhsulu, məsələn 20-30 qəpikdən alıb 1 manata satırlar. Bu halda həm istehsalçılar, həm də alıcılar uduzur. Udan yalnız alverçilərdir. Amma istehsalçı bazara buraxılsa, öz məhsulunu, məsələn 20 qəpiyə yox 40-50 qəpiyə satardı. Burada o iki dəfə çox qazanmış olur, alıcılar isə məhsulu iki dəfə ucuz almış olurlar.

Bunu təmin etməklə, ölkədə bolluq və ucuzluq yaratmaq olar. Dəfələrlə təklif etmişik ki, nazirlik bütün şəhərlərdə böyük daimi yarmarkalar təşkil etməlidir. Oraya öz məhsulunu gətirənlər pulsuz ya da simvolik qiymətlə buraxılmalıdır, alverçilər kənarlaşdırılmalıdır. Bu halda istehsalçılar öz məhsullarını rahat sata biləcək, yaxşı gəlir əldə edəcək, gələn il daha çox məhsul əkməkdə maraqlı olacaq. Dolayı yolla ölkədə bolluq və ucuzluq yaranacaq, artıq məhsulu xaricə ixrac etmək və ölkəyə valyuta qazandırmaq mümkün olacaq.

Kənd Təsərrüfatı Nazirliyi indiyədək bu barədə elə də effektiv addımlar atmayıb. Bu sahəyə ayrılan böyük vəsaitlər ciddi nəticə verməyib. Halbuki, düzgün idarəetmə aparılsa, aqrar sektor Azərbaycanda ən gəlirli sahə ola bilər, hətta neftdən də çox gəlir vermək potensialı var. Bunu edə bilsək, tezliklə ölkədə sosial-iqtisadi inkişaf daha böyük vüsət ala bilər, işsizlik tam aradan qaldırılar, ÜDM, dövlət büdcəsinin gəlirləri, qeyri-neft ixracımız artar, idxal azalar, əhalinin sosial vəziyyəti xeyli yaxşılaşar.

Aqrar sektor təkcə əkin əkilməsi, heyvandarlıq demək deyil, bu böyük yeyinti və yüngül sənaye sistemi deməkdir. Yəni, zavodlar, fabriklər, digər istehsal müəssisələri. Bunları yaratmaqla, xaricə ucuz qiymətə satdığımız xammalı özümüz emal edib hazır məhsul alarıq və daha çox qazanc əldə edərik. Xammal ixracatçısından, hazır məhsul ixracatçısına çevrilməlyik. Bunu yaratmaq üçün maliyyə imkanları da var. Hesab edirəm ki, məhz aqrar sənayenin yaradılması üçün strateji ehtiyatlarımızdan bir neçə milyardı ölkəyə gətirib bu sahəyə investisiya etmək olar.

Hökumət "Kəndə qayıdış" proqramı elan etməli, boş torpaqlarda təsərrüfat yaratmaq istəyən vətəndaşlara güzəştlər və kreditlər verməlidir. Televiziyada kənd həyatı təbliğ edilməli, əkin-biçin təşviq edilməlidir. Ali təhsildə aqrar sahəni, iş yerlərində regionları seçən şəxslərə xüsusi imtiyazlar verilməlidir.

Xüsusən də, işğaldan azad olunmuş ərazilərdə aqrar sektorun böyük potensialı var. Bu bölgədə aqrar istehsalçılara dövlət dəstəyi və güzəştlər artırılmalıdır. Artıq bu sahədə müəyyən işlərə başlanıb. Heyvandarlara subsudiyalar, əkinçilərə yardımlar həyata keçirilir. Bu işi genişləndirməyə ehtiyac var.

Ümumiyyətlə, son 30 ildə ölkə əhalisinin demoqrafik miqrasiyası birxətlidir- regionlardan Bakıya axın davam edir. Hazırda respublika əhalisinin yarısı Abşeron yarımadasında məskunlaşıb. Dediyimiz tədbirlər həyata keçirilsə, regionlarda həyat canlanar, paytaxta cəmləşmiş əhalinin böyük hissəsi geri qayıdar. Tarazlı inkişaf gedər və diversifikasiya olunmuş iqtisadiyyat formalaşar.

# “Ermənistan tam sülh razılaşmasını gecikdirir, qısa sülh isə olmayacaq”

***Rusiyalı jurnalist, Karnegi Berlin Rusiya və Avrasiya Araşdırmalar Mərkəzinin müəllifi Kirill Krivoşeyev ”Caliber” analitik mərkəzinə müsahibəsində Qafqazda yaranmış situasiya ilə bağlı fikirlərini bildirib. Analitikin müsahibəsini oxucularımıza təqdim edirik.***



***- Kirill, sizcə, niyə Ermənistan COP29 konfransı başlamazdan əvvəl Azərbaycanla sülh sazişi imzalamağa niyə belə tələsir?***

- Tələsir? Belə bir şey yoxdur.

***- Yaxşı, niyə olmasın? Ermənistanın baş naziri Nikol Paşinyan və komandası bu yaxınlarda dəfələrlə qısaldılmış sülh müqaviləsinin imzalanmasını və Azərbaycanın israr etdiyi Ermənistan konstitusiyasına yenidən baxılmasını təklif ediblər.***

- Məncə, yarımçıq Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanmasının COP29 ilə heç bir əlaqəsi yoxdur. Bu hadisəni belə bir müqavilənin imzalanmasına səbəb kimi qəbul etmək qəribədir, çünki söhbət tam sülh müqaviləsindən getmir. Bu hadisə siyasətə yalnız bir şəkildə təsir edir: belə bir fərziyyə var ki, ondan əvvəl silahlı eskalasiya mümkün deyil və bu, yəqin ki, düzgündür. Belə mühüm hadisədən əvvəl Azərbaycana hərbi eskalasiya niyə lazımdır? Çox güman ki, bu baş verməyəcək.

***- Tutaq ki, bu sizin subyektiv fikrinizdir. Mənə deyin, Ermənistan rəhbərliyi Bakını yarımçıq sülh sazişi imzalamağa çağırmaqla qarşıya hansı məqsədlər qoyur?***

- Birincisi, Nikol Paşinyan qısaldılmış formada sülh müqaviləsi imzalamaq istəyir ki, tarixdə ondan geriyə bu qalsın. O, hansısa yolla öz öhdəliklərini,- ilk növbədə, Bakıya qarşı təcavüz etməmək paktı və sair kimi- düzəltmək istəyir. Bütün məntiq belədir.

İkincisi, bəli, mən razıyam ki, bir tərəfdən Ermənistanda biz konstitusiyadan danışırıq, digər tərəfdən isə onu dəyişmək istəmirlər və ayaqlarını sürüyürlər. Görünür, onlar hesab edirlər ki, yalnız Azərbaycana lazım olanlara düzəlişlər etmək siyasi cəhətdən təhlükəlidir, bu isə o deməkdir ki, hər şeyi kompleks şəkildə tətbiq etmək lazımdır, bu isə çox vaxt aparacaq.

Hesab edirəm ki, 2027-ci ilə qədər Ermənistanın yeni konstitusiyasının hazırlanması düzgün qərardır. O vaxta qədər normal sənəd hazırlamaq mümkün olacaq, çünki Ermənistanın hazırkı konstitusiyası demokratik dövlət quruculuğuna imkan vermir. Bunu Serj Sarkisyan hakimiyyəti saxlamaq üçün yazıb və Paşinyan məxməri inqilaba başlayanda, sadəcə olaraq, bununla yaşamağa başlayıb. Ancaq mehriban bir şəkildə, normal parlament respublikası altında tamamilə yenidən yazılmalıdır. Bu doğrudur.



Üçüncüsü, əsas məqsəd odur ki, sülh müqaviləsi imzalansın ki, orada ərazi bütövlüyünün tanınması ilə bağlı bircə bənd olsun, nəsə olarsa, Azərbaycanı qınasın. Hamısı budur. Başqa məqsədlər yoxdur.

***- İrəvanın KTMT-dən çıxacağı ilə bağlı təminatlara baxmayaraq, hələ də buna cəsarət etməməsini necə izah edərdiniz?***

- Düşünürəm ki, Ermənistan KTMT-dən ona görə çıxmır ki, bu prinsipə əməl edir: nəyisə etməmək nəsə etməkdən yaxşıdır. Bu, məmurun, siyasətçinin məntiqidir. Hər şeyi olduğu kimi tərk etmək mümkündürsə, hər şeyi olduğu kimi tərk etmək daha yaxşıdır. Üstəlik, KTMT de-fakto heç nəyə təsir etməyən təşkilatdır və ondan çıxmaq Rusiyaya lazımsız zərbə, lazımsız qıcıqdır. Niyə? Ermənistanın KTMT-də olub-olmamasının heç bir fərqi yoxdur. Və formal olaraq bu Ermənistana nə verəcək? Güman etmək olar ki, ondan ayrılmaq Qərbdən müəyyən dividentlər gətirəcək. Amma yox. Deməli, bunun çox mənası yoxdur. Ona görə də görünür, Ermənistanın təşkilata dondurulmuş üzvlüyü davam edəcək və bu, uzun illər davam edə bilər. Niyə 10 il belə yaşamayaq? Asanlıqla mümkündür.




***- ABŞ və Fransanın Cənubi Qafqazdakı planları necədir?***

- Mən düşünmürəm ki, ABŞ-ın seçkilər ərəfəsində bu regionda hər hansı planı var. ABŞ prezidentliyinə namizədlərdən ”Cənubi Qafqazla bağlı hansı planları düşünürsünüz?” deyə soruşsanız belə, onlar anlaşılan heç nə deməyəcəklər. Cənubi Qafqaz hazırda ABŞ üçün heç bir mühüm dəyəri təmsil etmir. Daha doğrusu,sadəcə İran və Rusiya ilə həmsərhəd bölgə kimi baxırlar. Vəssalam. Kamala Harris bildirib ki, onun əsas rəqibi İrandır və Donald Tramp İranı da hədələməsinə baxmayaraq, Çinə daha çox önəm verir. Baxmayaraq ki, bu və ya digər namizəd qalib gələrsə, diqqət mərkəzinə çevrilə bilər.

Amma Fransaya gəlincə, bəli, o, Türkiyə və Azərbaycanla antaqonistdir. Bu, həmişəki siyasətdir və davam edəcək. Fransa regionda öz təsirini gücləndirmək istəyir və Ermənistan onun mühüm tərəfdaşıdır. Bu, onların həmişə yoxlayacaqları qutudur. Əgər Fransanın təkbaşına nəsə edə biləcəyini fərz etsək, o zaman mən siyasətçiləri o qədər istedadlı hesab etməyə meylli deyiləm ki, onlar bu qədər irəlidə olan hərəkətləri hesablayırlar. Məncə, vəziyyət həmişə qartopu kimidir. Siyasətçilər buna müəyyən düzəlişlər etməyə çalışsalar da, onu yaxşılaşdırmır, pisləşdirirlər. Siyasətçilərin nəyisə axtarıb əldə etdiklərinə dair heç bir nümunəm yoxdur. Adətən hər şey heç kimin istəmədiyi kimi olur.

***- Yəni, siz düşünürsünüz ki, Qərb Ermənistanı heç bir səbəb olmadan silahlandırır?***

- Fikrimcə, buna gözəl nümunə, üstəlik, Rusiya ilə həmsərhəd olmayan Moldovadır. Rusiya Federasiyası ilə həmsərhəd olan ölkələr ən çox belə boşluqdan təhlükə ilə üzləşirlər. Bir şeyi təhdid edə bilərsiniz. Bir ölkə Rusiya ilə birbaşa qonşu olmadıqda, daha çox seçim var. Bəli, Moldova zəngin ölkə deyil, amma Avropa İttifaqına daxil olmaq üçün daha çox çalışır, nəinki onu ora götürmək istəyirlər. Ermənistanı da təxminən eyni gələcək gözləyir.

***Tərcümə - Elçin Bayramlı***

# Rusiyalı politoloq: Gürcüstan hazırda düşünülmüş, milli maraqlara uyğun xarici siyasət aparır



***Gürcüstan hazırda düşünülmüş, milli maraqlara uyğun xarici siyasət aparır. Tbilisi Qərbin əlində alət və ya marionetka deyil. Bu kontekstdə Azərbaycanın timsalında Gürcüstanın yaxşı nümunə götürəcəyi qonşusu var. Bu fikirləri AZƏRTAC-a açıqlamasında rusiyalı politoloq, ”PolitRus” ekspert-analitik şəbəkəsinin rəhbəri Vitali Arkov oktyabrın 26-da keçirilmiş parlament seçkiləri fonunda Gürcüstanda ictimai-siyasi vəziyyəti şərh edərkən bölüşüb.***

Ekspertin fikrincə, müxalifətin dünənki Tbilisi mitinqini Fransanın Gürcüstanın işlərinə qarışması oyunu kimi şərh etmək lazımdır.

”Fakt budur ki, Gürcüstan, ilk növbədə, Fransaya Ermənistanda təsirini gücləndirmək məqsədilə silah tədarükü dəhlizi kimi lazımdır. Aydındır ki, dənizə çıxışı olmayan Ermənistan İran, Türkiyə və Azərbaycanla əhatə olunub və çətin ki, bu ölkəyə həmin ərazilərdən silah tədarük edilsin. Gürcüstan bu baxımdan neytral dəhliz idi. Ona görə də bu ölkədə qərbyönlü qüvvələrin qələbəsi Fransanın xeyrinə olardı. Yəni, Paris burada geniş şəkildə əl-qol aça bilərdi. Cənubi Qafqazda iki ölkə onların nəzarəti altında olacaqdı, təbii ki, nə Türkiyə, Rusiya və İranın təmsil olunduğu böyük regional güclər, nə də ABŞ buna imkan vermək istəməzdi”, -deyə agentliyin həmsöhbəti vurğulayıb.

Politoloq bu baxımdan ”Gürcü Arzusu”nun seçkilərdə qələbəsinin Azərbaycanın maraqlarına uyğun olduğunu qeyd etməyi də məqsədəuyğun hesab edir: ”Bakı ilə Tbilisi arasında çox gözəl, konstruktiv əlaqələr qurulub. Tbilisi İrəvana yaxınlaşmayacaq və Azərbaycana real təhlükə yarada biləcək hücum silahlarının tədarükü üçün dəhlizə çevrilməyəcək. Üstəlik, Gürcüstan Azərbaycanın enerji resursları üçün tranzit ölkədir. Bu münasibətlər yaxşı qurulub və bütün tərəflərin maraqlarına uyğundur”.

Vaşinqtona gəlincə, ekspert qeyd edib ki, ABŞ-ın dövlət katibi Antoni Blinken Gürcüstandakı seçkilərlə bağlı bəyanatında respublikanın siyasi liderlərini ”qanunun aliliyinə, bütün vətəndaşların hüquqlarına və əsas azadlıqlarına hörmətlə yanaşmağa” çağırıb. Arkov vurğulayıb: ”Cənubi Qafqazın bu ölkəsində seçkilərin nəticələri hər bir partiya tərəfindən fərqli şərh olunur: ”Gürcü Arzusu” ABŞ-ın seçkiləri tam tanıdığını deyir, müxalifət isə bunun əksini iddia edir. Görünür, həqiqət ortadadır. Blinkenin bəyanatlarını təhlil etsəniz, onun bilavasitə seçkiləri dəstəklədiyi, onları tanıdığı və ya tanımadığı barədə bir kəlmə də yoxdur. Amma şərti olaraq desək, o, Gürcüstan rəhbərliyi qarşısında cəmiyyətin demokratikləşməsi, qanunvericiliyə ABŞ-ın gözünə və qulağına xoş gələn dəyişikliklərin edilməsi vəzifəsini qoyduğuna görə, yəqin ki, [səsvermənin nəticələrini] reallığı belə bəyan edir”. Rusiyalı politoloq əlavə edib ki, Macarıstanın Baş naziri Viktor Orbanın hazırkı rəsmi səfəri də (28-29 oktyabr - red.) ”Gürcü Arzusu”nun mövqeyinin zəif olmadığını təsdiqləyir.

Dünən Tbilisidə keçirilən aksiya ilə bağlı mövzuya qayıdan politoloq əmin olduğunu bildirib ki, bunun Gürcüstanın gələcək rəhbərliyi - parlament və hökumət üçün heç bir mənfi nəticəsi olmayacaq. ”Bu, yəqin ki, Fransanın son bazarlıq aparmaq cəhdidir, Paris tərəfindən bir növ şantajdır. Bu cəhdin nə qədər uğurlu olduğunu görəcəyik. Yenə də Parislə kifayət qədər ciddi, çox sıx iqtisadi və digər əlaqələrin mövcudluğunu nəzərə alsaq, Gürcüstan Fransaya kəskin müqavimət göstərməyəcək, eyni zamanda, onun Tbilisinin boynunda oturub şərtlərini diktə etməsinə də imkan verməyəcək. Gürcüstan hazırda düşünülmüş, milli maraqlara uyğun xarici siyasət aparır. O, Qərbin əlində alət və ya marionetka deyil. Bu kontekstdə Azərbaycanın timsalında Gürcüstanın yaxşı nümunə götürəcəyi qonşusu var. Hesab edirəm ki, Gürcüstan belə bir xarici siyasəti rəhbər tutsa, onda iqtisadi və xarici siyasətdə uğur qazanar, dünya miqyasında daha böyük nüfuz sahibi olar. Güclüləri sevmirlər, amma güclülərə hörmət edir və onlarla hesablaşırlar”, - deyə ekspert sözlərini yekunlaşdırıb.

# Fransanın neokolonialist siyasətinə dünya hələ də göz yumur

“Yaşadığımız dövr demokratiya, danışıqlar yolu ilə sülh əldəetmə və humanizm prinsiplərinə əsaslanaraq məsələləri həlletmə dövrüdür. Hər bir insanın olduğu kimi, ölkələrin də söz, ifadə azadlıqları var. Əgər hər hansı bir problem yaşanarsa, bu zaman baş vura biləcəkləri Ədalət məhkəməsi də mövcuddur. Lakin bütün bu sistemə baxmayaraq, hələ də bəzi dövlətlər özlərinin heç bir əsası olmayan iddiaları, neokolonialist, müstəmləkəçilik arzuları ilə yaşamaqda davam edir. Bu kimi dövlətlər müstəmləkə qurmaq, insanları digər bir ölkəyə tabeçiliyə zorlamaq kimi niyyətlərindən əl çəkmirlər. Bu siyahının başında isə mənfur Ermənistanın ”bacısı” Fransa durur”. Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib.

O bildirib ki, Fransa müstəmləkəçiliyi ən ”sistemli” şəkildə həyata keçirən ölkədir. Təkcə Ermənistan yox, həmçinin özündən minlərlə kilometr uzaqlıqda olan Afrika, Kaledoniya kimi ölkələrdə də öz müstəmləkəçiliyini əldən vermək istəmir. Tarixə nəzər salsaq, 300 il boyunca Afrikanın Fransanın nəzarətində qaldığını, Seneqal, Fildişi Sahili və Benin kimi ölkələr həmin illərdə qul ticarəti mərkəzləri kimi istifadə olunduğunun və bölgədəki bütün resursların istismar edildiyinin şahidi oluruq. Bu isə neokolonialist ölkənin bir tərəfdən işğalçı və digər işğalçı dövlətlərə qeyd-şərtsiz dəstək verən bir dövlət olduğunun açıq nümunəsidir.





Bəşəriyyət Fransanın timsalında XXI əsrdə neokolonializmin ən amansız və aşkar təzahürü ilə üzləşib. Özünü dünyaya demokratiya beşiyi kimi sırımağa çalışan bu ölkə beynəlxalq aləmin susqunluğu qarşısında bu siyasətini ən sərt formada həyata keçirir. Rəsmi Paris ”Parçala və hökm sür” prinsipi ilə hərəkət edir, xalqları əsarətdə saxlamağa çalışır, buna nail olmadıqda isə repressiv, zorakı addımlara əl atır. Fransa sərhədlərindən minlərlə kilometr aralıda - keçmiş müstəmləkələrində, konkret olaraq Yeni Kaledoniya, Mayot adaları, Fransız Qvianası və s. bölgələrdə milli azadlıq hərəkatlarını, müstəqillik çağırışlarını qan içində boğur. XXI əsrdə özünü ”insan hüquqlarına hörmət edən əsas ölkə” adlandıran rəsmi Paris keçmiş müstəmləkələrində yerli əhalinin əhəmiyyətli bir hissəsinin ən adi hüquqlarını pozur. Hətta vəziyyət o yerdədir ki, Mayot əhalisinin, demək olar, yarısının doğum haqqında şəhadətnaməsi belə yoxdur. Konkret olaraq Yeni Kaledoniyada törətdikləri isə əsl insanlıq faciəsidir.










Fransa yeganə ölkədir ki, dənizaşırı departamenti adı altında keçmiş müstəmləkə ərazilərinə nəzarəti saxlayır və həmin yerlərdə müstəmləkəçilik siyasətini davam etdirir. Bunun nəticəsidir ki, dənizaşırı ərazilərdən olan Yeni Kaledoniyada gərginlik davam edir. Burada polislə etirazçılar arasında dəfələrlə toqquşmalar yaşanıb. Bu zaman hüquq-mühafizə orqanlarının əməkdaşları etirazçılara qarşı zorakılıq ediblər. Bölgədə fövqəladə rejim elan edilib, yerli kanak xalqının nümayəndələri kütləvi şəkildə həbs olunub, arxipelaqın müstəqilliyini tələb edən, etirazların rəhbəri olan 2 siyasi xadim isə ev dustaqlığına salınıb. Yerli hakimiyyət orqanlarının məlumatına görə, dövlət müstəqilliyi tərəfdarları ilə onların əleyhdarları arasında baş verən toqquşma nəticəsində onlarla insan, o cümlədən 50-yə yaxın şəxs xəsarət alıb.

Bölgədə etiraz hərəkatını yatırmaq üçün 11 fəalı həbs edib və hazırda da Fransada saxlanılırlar. Onların arasında Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının lideri Kristian Ten də var. Numea şəhərində saxlanılaraq dindirilən digər 10 nəfər barədə də oxşar qərar qəbul edilib. Onlara qarşı konkret hansı maddələrlə ittiham irəli sürüldüyü açıqlanmır. Lakin istintaq cinayətkar birlik yaratma, quldurluq və vəzifəli şəxsləri öldürməyə cəhd faktları üzrə aparılır.

Bütün bunlar barədə isə heç bir beynəlxalq qurum, təşkilat danışmır, susqunluq nümayiş etdirir. Avropa Parlamentinin ermənipərəst deputatları - Yanis Matiyatis, Şerban Sturza, Cordan Bardela, Mixael Blossom, Mari Tussan, Avropa Parlamentinin iş yerləri və sosial hüquqlar üzrə komissarı Nikolas Şmit bir dəfə də olsun bu məsələyə diqqət yetirmirlər.

Diqqət yetiriləsi mühüm bir məsələ, şübhəsiz ki, Qərbin Fransanın törətdiyi cinayətlərə biganəliyi, görməzdən gəlməsidir. Necə olur ki, insanların hüquq və azadlıqlarına qarşı hörmətsizlik edilir, lakin beynəlxalq təşkilatlar, müxtəlif dövlətlər buna reaksiya verməyə tələsmir. Şübhəsiz ki, bunun da kökündə Qərb ölkələrini birləşdirən ”dəyərlər” durur. Bunlar isə bütövlükdə Avropada kritik həddə çatan islamofobiya, ifrat sağçılıq, türkofobiyadır. Hazırda Avropada miqrantlara qarşı sərt qərarlar qəbul edilir, onların kütləvi şəkildə deportasiyası həyata keçirilir.

Göründüyü kimi, Yeni Kaledoniyada yaşananlara, eləcə də miqrantlara qarşı qərəzli ”siyasət” yürüdülməsinə münasibət bildirməyə ehtiyac görməyənlər bunun əvəzinə müstəqil xarici siyasət yürüdən ölkələri hədəfə alırlar. Avropa İttifaqının aidiyyəti qurumları da analoji mövqe nümayiş etdirirlər. Nə Fransanın, nə də bütövlükdə Avropa İttifaqı ölkələrində insan haqları sahəsində kök salmış sistematik problemlərə, artan islamofobiya və ikrah doğuran neokolonial siyasətə, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda və ”sarı gödəkçəlilər” kimi aksiyalarda həyatlarını itirməsinə göz yumurlar.

Bütün qeyd olunanlar Fransanın kolonial hakimiyyətinin əsl mahiyyətini ortaya qoyur. Bu ölkə hələ də anlamaq istəmir ki, bu cür siyasətin sonu iflasa məhkumdur. Fransanın konkret olaraq Azərbaycanla bağlı yürütdüyü riyakar və qərəzli siyasətin nə ilə nəticələndiyi də göz önündədir. Azərbaycan cavab addımları atdıqda, neokolonializmə qarşı mübarizəni prioritet elan edəndə bu, ölkənin daxili işinə qarışmaq cəhdi kimi dəyərləndirir.

Təəssüf ki, bir çox ölkələr və başçıları Prezidentcənab İlham Əliyev kimi cəsarətli və açıq şəkildə öz fikrini Fransaya qarşı ifadə etməkdən çəkinir. Bu, bir daha sübut edir ki, istər daxili, istərsə də beynəlxalq arenada Prezident cənab İlham Əliyev güclü siyasi xadimdir. Əgər Fransa BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlüyündən sui-istifadə etməyə davam edib, Ermənistanın üzərindən Azərbaycana qarşı çirkin əməllər törətməyə çalışarsa, bu zaman Azərbaycanın güclü siyasəti ilə qarşı-qarşıya qalmış olacaq.

Azərbaycan Fransanın müstəmləkəsi altında saxladığı xalqların insan hüquqlarını pozmasını, müstəqillik tələb edənləri həbs etməsini, öldürməsini beynəlxalq səviyyədə ifşa etməkdədir. Yeni Azərbaycan neokolonializmlə mübarizəyə qətiyyətlə önderlik edir və müstəqillik uğrunda mübarizəyə qalxan yerli xalqların nümayəndələri Bakı Təşəbbüs Qrupu ətrafında birləşərək azadlıq səslərini daha gur şəkildə dünyaya çatdırırlar”.

***Səbinə Hüseynli***

# Halloween: sevinc, yoxsa qorxu bayramı?

***Məlumdur ki, xüsusilə də son zamanlar ölkəmizdə "Halloween" (Cadugərlər) bayramına xüsusi hazırlıq görülür. Hətta ictimai iaşə müəssisələri də bununla bağlı obyektlərində dekor işləri görürlər. Bəs, bu nə ilə bağlıdır? Bizə aid olmayan bayramı qeyd etməyə məqsəd nədir? Azərbaycanda bu bayram niyə qeyd olunur?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bütpərəst və xristian köklərinə baxmayaraq, günümüzdə "Halloween" adlı bayram rəngarəng geyimləri və balqabaq bəzəkləri ilə seçilir. Bu ənənəvi olaraq hər il oktyabrın 31-nə keçən gecə qeyd edilir. Bayram zamanı uşaqlar fövqəltəbii personajların, fövqəlbəşər güclərə malik xəyali qəhrəmanların və ya ölümə səbəb olan varlıqların paltarlarını geyinirlər. Geyimləri ilə ev-ev gəzən balacaları valideynləri də müşayiət edir.

Dünyada populyarlığı günü-gündən artan "Halloween", Yaponiyadan ABŞ-a qədər uzanan qlobal bir ölçüyə çatıb və təbii olaraq pərakəndə satıcıların diqqətini çəkir.

"Halloween" ən çox ABŞ-də qeyd olunur, lakin bir çox başqa ölkələrdə də məşhurdur. Kanada, İngiltərə, İrlandiya, Avstraliya və bəzi Avropa ölkələrində müxtəlif tədbirlərlə





qeyd olunur.

*Bəs, bayram haradan qaynaqlanır və cəmiyyətlər festivalın simvollarını və ənənələrini nəyə borcludurlar?*

## Balqabaq

Balqabağın oyma və fənərə formalaşdırılmasının mənşəyi min il əvvəl Romadan əvvəlki Keltlərin "Halloween" Festivalına aiddir.

Tərəvəzlərin formalaşdırılmasına qayıdaraq, turp adətən onları daşıyan insanı qoruyacaq şəkildə təqdim olunur. Üzlər, qədim Keltlərin o gecə ətrafında dolaşdığına inandıqları pis və arzuolunmaz ruhları dəf etmək üçün istifadə olunur. "Halloween" ənənələrini "Yeni Dünya"ya gətirən yerli amerikalılar və irlandiyalı mühacirlər, balqabağın digər tərəvəzlərə nisbətən daha asan formalaşdırıldığını başa düşdükdən sonra, balqabaq "Halloween" bayramının ayrılmaz hissəsinə çevrildi.

## Geyim

Müasir konseptuallaşdırma tamamilə Amerikanın təsiri altında görünsə də, "Halloween" əfsanələr və bəzi xurafatlarla birlikdə Avropa mənşəli tarixi keçmişə malikdir.

Samhain fermerlərin məhsul yığdıqları, heyvanlarını kəsdikləri, ot və ağacları qışa hazırladıqları vaxtdır. Bu, dirilərin, ölülərin və ruhların bir-birinə ən yaxın olduğu zamandır. Şotlandiya və İrlandiyanın bəzi yerlərində qədim Keltlər mərhum qohumlarının diqqətini yayındırmaq üçün maskalar taxırdılar və ya paltarlarını dəyişdirdilər.

Bu günə qədər davam edən maska taxmaqla xarici görünüşünü dəyişdirmək ənənəsi əsrlər sonra yenidən şərh edilərək bu gün geyinilən geyimlərə çevrilmişdir.

## "Halloween" bütün dünyaya yayıldı

ABŞ və Kanada tərəfindən yenidən müəyyən edilən müasir "Halloween" bütün Avropaya yayılmaqda çətinliklərlə üzləşdi.

1990-cı illərdə "Halloween" Fransaya ixrac edildi, lakin Amerikada müşahidə edilən kommersiya həvəsini heç vaxt yaratmadı.

Sınaq müddəti bir neçə il çəkdi.

Bu, barlarda deyil, bir neçə gecə klubunda qeyd olunmağa başladı və xaricdə yaşayan, "Halloween" şənliklərinə ev sahibliyi edən insanlar arasında getdikcə daha çox sevilməyən bir əyləncəyə çevrildi. Limoges şəhəri, Atlantik okeanındakı digər əmiuşağılarından fərqli olaraq, müntəzəm Halloween paradı və festivalına ev sahibliyi edir.

## Rituallar və şənliklər

"Halloween" rituallarının ən qədimi, şübhəsiz ki, böyük tonqal yandırmaqdır. İnsanlar bir araya gələrək tonqallar yandırırlar. Digər tərəfdən, xüsusilə azyaşlı uşaqlar kostyum geyinir, qonşu evlərə baş çəkir və konfet yığırlar. Ev sahibi onların konfet üçün gəldiyini bilir. Eyni şəkildə müxtəlif maskalar da taxılır.



Başqa bir "Halloween" ənənəsi xəyal hekayələrinin danışılmasıdır. Bundan əlavə, qorxu filmlərinə baxılır, geyim müsabiqələri keçirilir, yeməklər yeyilir. Yeməklər çox vaxt qorxu mövzusunda olur. Müxtəlif yeməklərin qorxulu görüntüsünü yaratmaq üçün müxtəlif elementləri qablara bənzətməyə çalışırlar. Məsələn, kəsilmiş barmaqlara bənzəyən krakerlər və qan kimi görünən kekslər. Balqabaq da oyulub, həm bəzəkdə, həm də reseptlərdə istifadə olunur. Ailə və dostlar bir araya gəlir və ənənələr izdihamlı şənliklərlə davam etdirilir.

**Din xadimi Mircəfər Əyyubov:** "Hər bir mərasimin, bayramın, ritualın mesajı var. Ümumiyyətlə, bu dünyada hər bir hadisənin, olayın, hərəkətin və hətta hərəkətsizliyin də bir ictimai mesajı var. Müasir psixologiyada biz baxırıq ki( bədən dili hətta danışıqdan da bəzən daha çox önəm kəsb edir. Çünki bədən dilinin və geyimin də mesajı var.

Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, mənfi mesaj verən bayramların keçirilməsinin pisliyini izah etməyə ehtiyac



yoxdur. Sadəcə bəzi cəmiyyətlər var ki, onlar mənəvi immunitet baxımından çox zəifdirlər. Təəssüf ki bizim xalqımız da o vəziyyətdədir. Varid olan, daxil olan istənilən rituala açıq bir xalqa çevrilmişik. Musiqimiz unudulur, başqa millətlərin musiqisinə önəm veririk, şerimiz unudulur, başqa millətlərin yazdığı şeir növlərinə önəm veririk, ədəbiyyatımız unudulur, nəsrimiz, romanımız unudulur, filmlərimiz unudulur, teatrımız unudulur, geyimimiz unudulur. Yəni get-gedə hər şeyi əldən verib başqa yenisi ilə əvəz edirik və bu yenisi də yeni deyil, sadəcə başqa millətin, başqa xalqların təbliğ etdiyi ənənələrdir. Artıq toylarımızda vağzalıya həsrət qalmışıq. Çünki kilsə musiqisi ilə bəylə gəlin şadlıq evinə daxil olur.

Təəssüf ki bu tendensiya bu bayramlarda da keçirilir və hətta bu bayramları qeyd etməyən məktəblərə, uşaq bağçalarına bir çox valideynlər təəssüf hissi ilə baxırlar. Yəni, doğru qalıb kənarda yalanın hayqırtısı qulaq batırır. İslam dininə əsasən insana müsbət enerji, müsbət mesaj verməyən hər şey qadağan olunmalıdır. Təəssüf ki bizim əlimizdə heç bir səlahiyyət yoxdur. Sadəcə biz tövsiyə xarakterli nələrsə deyə bilərik. "Halloween" bayramıdır o qəbildəndir. Yəni, insanlara, xüsusən uşaqlara qorxulu varlıqları sevdirmək, dəhşətli görkəmləri doğmalaşdırmaq bizim sabahkı cinayətkar, kriminal nəslimizin yetişdirilməsi deməkdir. Mən belə düşünürəm".

## "Hallowen"in uşaqlara təsiri

Araşdırmalar göstərir ki, uşaqlar 3 və ya 4 yaşlarında fantaziya ilə reallıq arasında fərq qoymağı yaxşı bacarırlar. "Halloween" üçün yanğınsöndürən kostyumu geyinən bir uşağı düşünün. Qısa müddət ərzində o uşaq özünü güclü və cəsur görür, insanlara kömək edir və komandanın bir hissəsi kimi işləyir.

Bir araşdırmada psixoloqlar bu günün uşaqlara təsirini qiymətləndirərkən müsbət danışırlar. Bolqarıstan Elmlər Akademiyasının İnsan Tədqiqatları İnstitutundan dosent Marqarita Bakraçeva hesab edir ki, "Halloween" bayramının qadağan edilməsi uşaqlara mənfi təsir göstərəcək:

Hər bayram əylənmək və vaxt keçirmək üçün bir fürsətdir. Bu şən bayramın qeyd edilməsi qadağan olunarsa, azyaşlı uşaqlara təsiri mənfi olacaq. Karnaval kimi fərqli insanlar kimi geyinmək, maskalar və kostyumlarla fərqli görünüş əldə etmək istəyi mifologiyadan bəri mövcuddur. Rəngarəng kostyumlar, maskalar və aksessuarlar normal qəbul edilməlidir. Uşaqlar birlikdə qeyd edərkən, bütövlükdə və cəmiyyətin bir hissəsi kimi paylaşmağı öyrənirlər. Onlar xoşbəxt olacaqlar Bu bayram uşaqlar üçün asan başa düşülən əyləncəli bir gündür. Bundan təhsil məqsədləri üçün də istifadə edə bilərik. Fərqli geyimlərdə və personajlarda geyinmək, özünüzü müxtəlif rollarda və situasiyalarda görməyə imkan verir. Valideynlər də övladlarının dəyişikliklərini və təşəbbüslərini dəstəkləməlidirlər. Halloween bayramını qeyd etmək çox vacibdir, xüsusilə də İnternet əsrində, qorxu və cadugərlər dünyasında, geyimlərdə və maskalarda sərhədləri müəyyən etməkdir.



Ölkəmizdə də adi hala çevrilən "Halloween" ənənəsi dünyanın bir çox ölkəsində davam etdirilir və qorxulu mövsüm bu aydan rəsmi olaraq başlayıb.

Niyə biz xüsusilə "Halloween" bayramında qorxu hissini arzulayırıq? Türk mütəxəssis Tamar Kuşnir, sərhədləri aşmaq və ənənələr kontekstində qorxu axtarmaq istəyinin arxasındakı mümkün nəzəriyyələr üzərində insan inkişafını əsaslandırdı. Onun elmi perspektivə əsaslanan fikirlərinə görə, bütün bu qarışıqlıqların arxasında məşhur psixoloji nəzəriyyə dayanır.

## Bəs, bizim psixoloqlar bu barədə nə düşünür?

**Psixoloq Zeynəb Eyyubova:** "Ölkəmizdə "Halloween" bayramı daha çox ingilis bölməli qruplar açılandan, ingilis təhsili Azərbaycanda geniş yayılandan sonra olan bir bayrama çevrildi. Bir psixoloq olaraq deyim ki, kiçik yaşlı uşaqların olduğu bağçalarda bu bayramın keçirilməsinin əleyhinəyik.

Dəfələrlə bu barədə bizə müraciət ünvanlanıb ki, uşaqlarda qorxu yaranır, kəkələmə yaranır, gecə enurizləri baş verir. Çünki uşaq niyə bu prosesin baş verdiyini anlamır və buna əyləncə kimi baxa bilmir.

Yəni daha gözəl payıza aid bizim ölkəmizin özünün bayramları var, payız bayramı var, buna mövsüm və ya məhsul bayramı da deyirik. Yəni eyni fəsilə düşdüyünə görə



mən ölkəmizdə bu bayramların keçirilməsinin daha tərəfdarıyam".

Niyə belə günlər qeyd olunur? Çünki artıq uşaqlar, müəyyən təbəqə uşaqlar hər şeyi görüblər və yeni əyləncələr axtarırlar, yeni baş qatan işlər axtarırlar və bu da yenilik sayılır. Mənfi təsiri ona görə var ki, insanlar birbirini qorxudur, əcaib geyimlər geyinirlər, bəzi uşaqlar bundan mənfi aura alır və s. Amma qəti bu bayramın keçirilib keçirilməyəcəyi barədə psixoloji rəy verə bilmirəm ki, tam pisdir. Amma məndən bir psixoloq kimi məsləhət alsanız, bu bayramlardan daha gözəl, daha əyləncəli və daha maraqlı bayramlar var."

***Ayşən Vəli***

# Azərbaycan Orta Dəhlizin inkişafına önəmli töhfələr vermək gücündədir

## Kazan Sammiti bir daha göstərdi ki, etibarlı müttəfiqlərimizin coğrafiyası genişlənir

Azərbaycanın davamlı olaraq həm regional, həm də beynəlxalq platformalara dəvət olunması bir daha göstərir ki, ölkəmizin geosiyasi nüfuzu durmadan artır. Qeyd edək ki, Prezident İlham Əliyevin Rusiyanın Kazan şəhərində keçirilən XVI BRICS Sammitinə dəvət olunması bir daha bu həqiqəti təsdiq etdi. Hazırda 10 üzvü olan bu təşkilat 2006-cı ildə yaradılıb. Təşkilatın Sammitində 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, həmçinin 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş iştirak edib. Bu qlobal təşkilat qarşılıqlı hörmət, bərabərlik, inklüzivlik kimi ciddi prinsiplər əsasında yaradılan bir platformadır. XVI BRICS Sammitinin yekun Bəyannaməsində üzv dövlətlər təşkilatın ruhuna sadiq qaldıqlarını və əməkdaşlığı bundan sonra daha da inkişaf etdirmək əzmində olduqlarını bildiriblər. Sammitdə qəbul olunan sənəddə BRICS ölkələri arasında əməkdaşlığın əsas istiqamətləri önə çıxarılır. Təşkilata üzv dövlətlər siyasət və təhlükəsizlik, iqtisadiyyat və maliyyə, mədəni və humanitar əlaqələr sahəsində əməkdaşlığın dərinləşməsinə özünəməxsus töhfələr verirlər. Lakin bu, son deyil və sənəddə inteqrasiyanın dərinləşdirilməsi istiqamətində hələ çox işlərin görülməsinin zəruriliyi bildirilib.

Bütün bunların fonunda Prezident İlham Əliyevin təşkilatın Kazan Sammitinə dəvət olunması heç də təsadüfi deyil. Məlumdur ki, Azərbaycan BMT-dən sonra ikinci beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il sədrlik edib və hələ də həmin qurumda uğurlu fəaliyyətini davam etdirir. Bundan başqa, COP29 dünyanın diqqətini də ölkəmizə yönəldib. Hazırda bu istiqamətdə həm də BRİCS ölkələri ilə fəal dialoq aparılır və əməkdaşlıq həyata keçirilir. Kazan sammitinin "Outreach"BRICS+" formatının ilk plenar iclasında Prezident İlham Əliyev bu barədə deyib ki, Azərbaycan çoxtərəflilik prinsipinə önəm verir. Ölkəmizin başçısı vurğulayıb ki, Azərbaycan əlverişli coğrafi məkanda yerləşir və bu, Asiya ilə Avropanın nəqliyyat dəhlizlərinin mərkəzi ola bilər. Xüsusilə Azərbaycan Şərq-Qərb dəhlizi olan Trans-Xəzər (Orta Dəhliz) nəqliyyat dəhlizi ailəsinin fəal üzvü kimi son illər ərzində bu layihədə strateji rolunu və mövqeyini daha da inkişaf etdirib. Yəni, hazırda Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının inşa olunması, Bakı-Tbilisi-Qarsı fəaliyyət göstərməsi, Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturunun şaxələndirilməsi və modernləşdirilməsi, avtomagistrallar, hava limanları kimi yeni layihələrin icrası da Orta Dəhlizin inkişafına önəmli töhvələr verir və verməkdə davam edəcək.











Məlumdur ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti rentabelli layihə kimi qiymətləndirilir. Eyni zamanda, Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gələndən sonra 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yoluna beynəlxalq hüquqi status verildi. İqtisadçıların hesablamalarına görə, Çinin "Bir kəmər, bir yol" layihəsi tamamilə işə başlayandan sonra Xəzər dənizi vasitəsilə hər il 15 milyon ton yükaşırma qabiliyyətinə malik olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücü 25-30 milyon tona qədər artacaq. Digər önəmli məsələ isə bu dəhlizin ən strateji xətlərindən biri olan Naxçıvan ilə quru əlaqələrin bərpası və muxtar respublikanın Xəzər-Aralıq dənizini birləşdirən loqistik məkana çevrilməsidir. Bir sözlə, Naxçıvanla kommunikasiya sisteminin qurulması üçün tarixi İpək Yolunun məsafəsi və yüklərin çatdırılma sürəti daha səmərəli hesab edilir. Həmçinin ölkəmiz Şimal-Cənub nəqliyyat dəhlizinin kəsişməsində yerləşir. Məhz bütün bu amillər Azərbaycanın BRICS üçün dəyərini xeyli artırır. Ona görə də qürurla deyə bilərik ki, bu təşkilatla ölkəmizin tərəfdaşlığı yaxın gələcəkdə daha da genişlənəcək.

Ümumiyyətlə, son bir neçə ildə Azərbaycanın modern bir dövlət olaraq xarici siyasətdə fəallığının artması, o cümlədən bir çox böyük dövlətlərlə srtateji tərəfdaşlığının genişlənməsi ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayını artırıb. İlk olaraq vurğulamaq lazımdır ki, Azərbaycanın BRICS-ə daxil olmaq üçün rəsmi müraciəti ölkəmiz üçün yeni əməkdaşlıq perspektivləri vəd edir. Belə ki, hələ Kazan sammitindən öncə, yəni bu ilin i yulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını dəstəkdəyib.

Bəs Azərbaycanın gələcəkdə BRICS-ə bərabərhüquqlu üzv kimi qəbulu ölkəmizə hansı inkişaf perspektivləri vəd edir? Məlumdur ki, sözügedən beynəlxalq təşkilatda Çin, Rusiya , Braziliya və BƏƏ kimi iqtisadi cəhətdən çox güclü ölkələr var. Bu isə Azərbaycana yeni iqtisadi əməkdaşlıq imkanları qazandıracaq. Xüsusilə ölkəmiz burada yeni bazarlar, yeni investisiyalar əldə edə biləcək. Daha önəmlisi isə odur ki, Azərbaycan ilə Çin arasında ticarət sahəsində kifayət qədər böyük potensial mövcuddur ki, qalır sadəcə yaxın perspektivdə bundan səmərəli istifadə etmək... Yəni, dövlətimiz nəinki Asiyanın hətta dünyanın həm ərazi və əhali, həm də iqtisadi cəhətdən ən böyük ölkəsi olan Çini yalnız dost ölkə deyil, həm də sürətli texnoloji inkişafın mənbəyi kimi dəyərləndirir. Həmçinin ölkəmiz Çinə özünün milli prioritetlərindən biri olan rəqəmsal və "yaşıl keçid"də də tərəfdaş hesab edir. Bundan əlavə, hər iki ölkə birgə bərpaolunan enerji mənbələri və elektrik avtomobilləri üçün avadanlıq istehsal edə bilər. Bu amilləri nəzərə alan Prezident İlham Əliyev Çinlə əməkdaşlığı Azərbaycanın prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Bir sözlə, yaxın gələcəkdə BRİCS-ə üzv dövlətlərlə müttəfiqlik Azərbaycana həm iqtisadi, həm də geosiyasi yüksəliş imkanları verəcəkdir ki, bu da Cənubi Qafqazdakı üstünlüyümüzü nəinki qoruyacaq, hətta daha irəli aparacaqdır. Təbii ki, BRICS platformasında Azərbaycanın oynaya biləcəyi rol yalnız iqtisadiyyatla məhdudlaşmır. Cənubi Qafqazdakı sabitlik və təhlükəsizlik məsələləri BRICS ölkələri üçün getdikcə daha böyük aktuallıq kəsb edir. Bu isə o deməkdir ki, Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və və Şərqi Zəngəzur iqtisadi rayonlarında həmin ölkələrin sərmayələrini cəlb etmək üçün yeni alternativlər yaranacaq.

***Elçin Zaman***

# O ki xəzinədir, qorunmalıdır...

***Xəzinə-pul, cəvahirat, qiymətli əşyalar saxlanan yer mənasını verir və ilk səslənmədə göz önündə maddi bir varlıq canlanır. Qədimdə hökmdar saraylarında qızıl, qaş-daş və digər maddi dəyərlər saxlanılan yer idi xəzinə. İndi isə bütün dövlətlərdə xəzinə ona məxsus pul, sərvət və torpaq anlamındadır. Və xəzinə hansı əsrdə harada, necə, nə formada olubsa, onun qorunması möhkəm əsaslarla təşkil olunub və olunmaqdadır. Çünki o, xəzinədir.***



Maddi nemətlərin saxlandığı xəzinə ilə yanaşı, mənəvi dəyərlərə məxsus xəzinə də vardır ki, bu gün məhz ondan söhbət açmaq istəyirik. O xəzinə ki, nə dövlətlərə, nə saraylara aiddir. Həmin xəzinə dünyada yaşayan bütün insanların içində daşıdığı bir xəzinədir. Mənəviyyat xəzinəsidir adı. Bu söhbətimizdə kişilərin deyil, qadınların bu xəzinələri necə qorumasından, mühafizə etməsindən danışaq.

## Bədənimiz xəzinəmizdir

Bəli, hər bir qadının bədəni onun xəzinəsidir. Vaxtilə saraylarda xəzinələr necə qorunurdusa, bunun üçün əlisilahlı mühafizəçilər gecə-gündüz necə ayıq-sayıq dayanırdısa, elə bu gün dövlət xəzinələri necə qorunursa, hər bir qadın da özü öz xəzinəsinin qoruyucusu, mühafizəçisi olmalıdır.

Kiçik yaşlarında biz qızlarımızı-xəzinələrimizi qoruyuruq. Onları qorumaq əlbəttə, biz ana-ataların borcudur. Və zamanla övladlarımızı elə yetişdirməyə çalışırıq ki, müəyyən yaşdan sonra onlar özləri özlərini qoruya bilsinlər. Lakin buna nail ola da bilirik, olmaya da. Bu da təbii ki, bizim özümüzdən, xüsusilə analardan asılıdır. Biz qızlarımıza nəyi necə təbliğ edə biliriksə, illər sonra onun bəhrəsini də eynilə görürük.

Bədənimiz xəzinəmizdir, deyirik. Bəs biz qızlarımıza bunu kiçik yaşlarından aşılaya bilirikmi? Onların bədənlərini qorumağı, mühafizə etməyi, bu dəyəri qoruyub saxlamağı yetərincə öyrədə bilirikmi? Bu gün açıq-saçıq geyinən qızlarımızın bədənlərinin qapalı qalmalı olan yerləri hər kəsin gözü önündədir. Qısa ətəkləri, yaxası normaldan çox aşağı, göbəkdən yuxarıda qalan qısa köynəkləri, adı şalvar olub ancaq qızlarımızın örtülü qalmalı əzalarını bayırda qoyan şalvarları kim alır onlara? Qızlar bu cür geyinmələri üçün kiminlə məsləhətləşir?

Fərqinə varırıqsa, müasirlik adı altında dəyərlərimiz əlimizdən gedir. Biz xəzinəmizin ağzını açıb qoymuşuq ortaya, gələn-gedən nə istəyirsə, götürür, keçir. Axı bu xəzinə bir gün tükənə bilər. Bu kimi isə qorxuya, təşvişə salmırmı?

Nə üçün bizim bədənimiz kimlərinsə gözü önündə olmalıdır? Nə üçün biz qızlarımızı qarşımızda əyləşdirib bir ana kimi onlara bu qiymətli, dəyərli xəzinə və onu qorumaq, mühafizə etmək barədə söhbət etmirik.

## Fabriklər varlandıqca, biz kasıblaşırıq

Onsuz da bütün dünyada tikiş fabrikləri "haqqın" yolunu tapıb. Az parça ilə böyük qazanc yolunu seçiblər. Qısa ətəklər, qolsuz, yaxasız köynəklər, donlar belə fabriklərə milyonlarla vəsait gətirir. Fabriklər varlandıqca, biz kasıblaşırıq. O mənada kasıblaşırıq ki, mənəviyyatımız əlimizdən gedir. Həm baha qiymətə paltar alıb geyinməli oluruq, həm də bu geyimlərlə mənəviyyatımızı ucuzlaşdırmaq qarşısında qalırıq.





Kimlər verir bu cür paltarların dizaynını? Heç qadın olaraq bir yerə toplaşıb onlara qarşı üsyana qalxa bilmişikmi? Yoxsa gündəlik iş və ev həyatına başımız elə qarışıb ki, gözümüzün önünü belə görə bilməmişik? Tamamilə belədir. Belə olmasaydı, biz qızlarımızın geyimkecimine diqqət edərdik, onların nə geyindiyi ilə maraqlanardıq. Əksinə, sanki bir pərdə çəkilib gözlərimiz önünə. Bütün bunları olarmış kimi qəbul edib əyləşmişik yerimizdə. Başımıza seriallarla, telefonlarla, əttökən sosial şəbəkələrlə qatıb qızları ötürmüşük özbaşına.

Hələ böyük qızlar bir kənara, 2-3 yaşlı körpə qızlarımız üçün fabriklər eyni paltarları tikib bizə təqdim edir. Bir də baxırsan ki, küçədə gözəl bir qız uşağı, göbəyi açıq paltarda . Eynilə böyüklərin paltarının kiçik forması. Biz də bunları sevə-sevə alıb geyindiririk bu körpələrə ki, elə bu ağılla, başla böyüyün. Görək onlar böyüyəndən sonra əyinlərinə normal paltar geyinib öz xəzinələrini gizlədə biləcəklərmi? Əlbəttə, xeyr. Çünki biz onları elə böyüdürük. Etinasızlığımızla, "müasirliyə", dəbə aldanmağımızla elə bir tərbiyə aşılayırıq ki, onlar düşünür ki, bu, elə belə də olmalıdır. Lakin təəssüf ki, itiririk. Mənəvi dəyərlərimizi fabriklər, dizaynerlər, əlimizdən alır, biz də zaman gələcək ki, onların arxasınca baxabaxa qalacağıq.

## Çılpaqlıqla açıqlığın fərqi

Hər ikisi özlüyündə ayrı-ayrı mənaları izhar etsə də, lakin hər ikisi geyimdə eyni mənanı verir. Ya çılpaq gəzmiş, ya bədənin mübhəm yerlərini bayırda qoymuş, bunların hər ikisi eynidir. Elə söz düşərkən deyəndə ki, bu qızlar niyə belə geyinirlər, bunların anaları haraya baxır, cavab alırıq ki, nə olub ki, çılpaq deyillər ki. Əslində isə bu cür cavab özünümüdafiədən başqa bir şey deyil. Bəs özünü müdafiə edən adam nə üçün xəzinəsini müdafiə edə, qoruya bilmir, maraqlıdır.

Qadının sinəsi, göbəyi, budları onun kiminsə görməməli olduğu əzalarıdır. Bizim qədim milli geyimlərimizdə bu hissələrə çox diqqət verilirdi. Görənlər görüb, görməyənlər isə bu gün muzeylərimizdə nümayiş etdirilən qadın geyimlərindən ibrət dərsi götürə bilərlər. Bəli, o zamanlar qadınlar öz xəzinələrinin sahibi idi. Bu xəzinə onlar tərəfindən göz bəbəyi kimi qorunurdu.



Bu gün isə biz açıq-saçıq geyimlərlə öz milliliyimizin qənimlərinə çevrilmişik. Düşünürük ki, bu geyimlərlə dəbliyik, müasirik, gözəl görünürük. Lakin tamamilə əksinə. Açıq geyinməklə nə dəbli, nə müasir, nə də gözəl görünmək olar. Gözəllik açıqda deyil, gizlidədir: sinənin örtülü olmasında, göbəyin ümumiyyətlə, görünməməsində, ayaqların uzun ətəyin altında mübhəm qalmasındadır. Belə olanda gözəl bir qadın dayanır gözlər önündə. Onun zərif bədəninə normal biçimli paltarlar xüsusi bir gözəllik verir. Burada bir xəzinə effekti yaranır. Bu xəzinənin içərisində nə var, onu necə görmək olar marağı gizlənir. Biz öz xəzinəmizi qoruduqca, mühafizə etdikcə ətrafdan bir o qədər diqqət çəkir. Və bizim mühafizəkarlığımız zamanla özümüzün özümüzə hörmətinə, eləsə də ətrafdakıların bizə hörmətinə səbəb olur. Çünki bizim dəyərimizi mühafizə etməyimiz onlara da gün kimi aydın görünür.

## Paltar qısalır, saçlar uzanır

Vaxt vardı ki, paltarlar da uzun idi, saçlar da. Saç hər zaman Azərbaycan qadınının yaraşığı olub. Uzun saç bizim milli geyimlərimizin ən gözəl aksesuarı da olub. O paltarların üzərinə bir hörük atmaq bu gözəlliyi füsunkarcasına tamamlayıb.

Lakin zaman ötdükcə, biz o saçlara divan tutduq. Bir aralar tam qısaltdıq. Daha sonra ətəklərimizi, donlarımızı qısaltdıqdan sonra saçlarımızı uzatmağa başladıq. O yerə kimi uzatdıq ki, saçlarımız ətəklərimizlə, şortlarımızla bir oldu. Bu da oldu dövrün dəbi. Qısa ətəklər, şortlar, üzərində o qədər uzunluqda saçlar...

Əslində necə, buna dəb demək olarmı? Bəlkə də kimlər üçünsə dəbdir, müasirlikdir. Bəlkə də kimlərsə bunun üçün bizi qınayar, geridə qalmış adlandırar da. Lakin həqiqətdə bu, heç də xoşagəlim bir dəb deyil. Çünki o gözəllikdə saçlar açıq bir bədənin nə qüsurunu örtür, nə də eyibini. Əksinə, bu açıqlığa yeni bir cəlbedicilik qatır ki, bu, bizim qızlarımıza əsla lazım deyil.

Elə dərd də buradadır ki, əksər qızlarımız bu cür geyimlərə meyillidirlər. Və əksər analar da onların qarşısını almaqda ya acizdir, ya da bu geyimləri olduqca normal hesab edir. Beləliklə, xəzinəmiz təhlükəli bir vəziyyətdə qalır. "Nə etməli" sualı da elə buradaca öz cavabını axtarır.

## O, xəzinədirsə...

Bəli, bilən bilir, bilməyən də qoy öyrənsin ki, qadının bədəni onun qiymətli xəzinəsidir. Bu xəzinəni qorumaq üçün o, bütün gücünü sərf etməlidir. Çünki xəzinəyə tək bir dəfə soyğunçuluq başlayarsa, bu, davam edəcək. Qarşısını almağa güc yetməyəcək. Belə isə elə ən başdan xəzinə qorunmalıdır. Birinci analar tərəfindən, sonra isə qızlarımızın özü onu mühafizə etməlidirlər. Necə ki, bir deyimimizdə deyilir: ana, özümü tanıyanadək sən məni qoru, sonra mən özümü qoruyacağam. Bax bu deyim həmin xəzinələrin qorunmasına aiddir. Çünki hər şey elə qorumaqdan, qorumaqla yanaşı, anlatmaqdan, başa salmaqdan başlanır. Yoxsa qorumaq tək başına bir işə yaramaz. Eyni zamanda anlatmaq, zamanla öyrətmək lazımdır ki, övladımız vaxtı çatanda özünü qoruya bilsin, yəni geyimi, davranışı, hərəkəti ilə bir qiymətli xəzinə və bu xəzinənin də dəyərli olduğunu hər kəsə nümayiş etdirə bilsin. Əks təqdirdə biz milli dəyərlərimizin üzərindən xətt çəkmiş olarıq.

***Mətanət Məmmədova***

# Dağıdıcı müxalifət yeni təxribata hazırlaşır



***Azərbaycan dünya siyasətində, iqtisadi sferada gücləndikcə bəzi ölkələrin və beynəlxalq təşkilatların ölkəmizə qarşı qərəzli münasibəti və pozucu niyyətli addımlarının da sayı artmaqdadır. Avropa Oyunları, Eurovision müsabiqəsi, İslam Oyunları, "Formula-1"-in yarışları ərəfəsi olduğu kimi COP29 konfransı öncəsi də ABŞ-ın və Avropanın ermənipərəst dairələrindən qidalanan, maddi və mənəvi dəstək alan hakim zümrəsi Azərbaycana qarşı düşmən münasibətlərini daha iyrənc formada genişləndiriblər. Bəzən Avropa Parlamenti və AŞPA -da həmin qərəzli ölkələrin siyasətçilərinin çaldıqları havaya oynamaqla ölkəmizin imicinə kökə salmağa xidmət edən qətnamələr qəbul edirlər.***

Bu cür iyrənc kampaniya ilə əsas məkrli niyyətləri COP29 ərəfəsi Azərbaycanın siyasi imicinə zərbə vurmaq, ölkəmizi gözdən salmaqdan ibarətdir. Lakin əminliklə qeyd etmək olar ki, hər cür qarayaxma kampaniyasına, şər və böhtanlara və mənasız ittihamlara baxmayaraq, Azərbaycan bu mötəbər konfransı böyük uğurla keçirməyə nail olacaq. Artıq aparılan işlər onu deməyə əsas verir ki, ölkəmiz COP29-a hazırlıq prosesini tam şəkildə başa çatdırıb. Görülən işlərin uğurlu alınmasında Azərbaycanın bir çox ölkələr və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi də xüsusi rol oynayıb. COP29-un digər əvvəlki konfranslardan fərqi ondan ibarətdir ki, bu konfrans tarixə həm də sülh konfransı olaraq düşəcək. Çünki "COP29 naminə Birgə Atəşkəs Çağırışı" ilə bağlı dünyanın müxtəlif bölgələrində müharibə aparan, münaqişə edən tərəflərə çağırış edilib: "COP29 Sədrliyi rəsmi olaraq öz flaqman təşəbbüsünə - COP Atəşkəs Çağırışına start verir və bütün tərəfləri siyasi çətinliklərə rəğmən birlik olmağa, COP29-un keçirildiyi 1 ay ərzində atəşkəsə əməl etməyə çağırır. Maraqlı tərəflərin sülh prosesinə dəstək olmaları üçün COP29 naminə Birgə Atəşkəs Çağırışı rəsmi olaraq açıq elan olunur. Bütün dünyadan həm tərəflər, həm də müşahidəçi qismində çıxış edən maraqlı tərəflər artıq öz dəstəklərini bildirərək Birgə Atəşkəs Çağırışını təsdiq etmişlər. Çağırışı təsdiq edən ölkə və təşkilatların siyahısı veb-saytda dərc ediləcək".

### Əli Kərimlinin və Cəmil Həsənlinin erməni dairələri ilə iş birliyi üzə çıxır

Azərbaycan çox böyük xeyirxah, humanist missiyanı üzərinə götürüb, həyata keçirməyə səfərbər olunduğu bir vaxtda AŞPA, Avropa Parlamenti, eləcə də Almaniya, Fransa, ABŞ kimi ölkələrin qara niyyətli qara geşişləri-nin Azərbaycanı hədəf seçmələri onların dünyada sülhə, təhlükəsizliyə, insan hüquq və azadlıqlarına düşmən kəsildiklərini göstərir. Bu azmış kimi sözügedən ölkələr və beynəlxalq təşkilatların erməni təəssübkeşləri maliyyə imkanlarına arxalanıb Bakıdakı təmsilçilərini də öz məkrli tezislərini gündəmə çıxarıb, sosial şəbəkələrdə və media müzakirələrində yaymağa təhrik edirlər. Söz və ələbaxan funksiyasını yerinə yetirən Milli Şuranın, AXCP-nin və Müsavatın rəhbərliyi və trolları xor dərnəyinin cükküldəyən üzvləri kimi ağız-ağıza verib ölkəmiz haqqında hədyanlar səsləndirirlər. Bütün günü bu məxluqlar saxta adlar altında sosial şəbəkələrdə dövlətimizin imicinə xələl gətirməyə hesablanan şər və böhtanlar yazır, videolar paylaşırlar. Sual edilir, nəyə görə xalqına düşmən kəsilmisiniz? Nədən dövlətinin beynəlxalq aləmdə imicini ləkələməyə çalışırsınız? Hər bir sualın, sadə cavabı var: maliyyə yardımları və mənəvi dəstək onları doğulub boya başa çatdıqları dövlətinə və sıralarında yer aldıqları xalqına düşmən kəsilməyə vadar edir. Hətta Əli Kərimli və Cəmil Həsənli aldıqları sifarişlərə uyğun olaraq COP29 konfransının keçirilməsinə saylı günlər qalanda Bakı şəhərində təxribat xarakterli icazəsiz aksiya keçirməyi planlaşdırırlar. Bununla bağlı Milli Şura-da və AXCP Rəyasət Heyətində müzakirələr aparılıb və müvafiq qərar verilib. İcazəsiz aksiyaların COP29 konfransını izləmək üçün Bakıya gələn xarici jurnalistlərin və müxtəlif ölkələrin rəsmi şəxslərinin yerləşdikləri otellərin yaxınlığında keçirilməsi nəzərdə tutulur.

### Əli Kərimlinin qarşıdurma yaratmaqda məqsədi məlum olur

Qanunvericiliyə görə icazəsiz aksiyaların keçirilməsi yolverilməzdir. Yəni hər bir aksiya şəhər icra hakimiyyəti ilə razılaşdırılmaldır. Ə.Kərimli və C.Həsənli isə qanunlara qarşı çıxmaqla bilərəkdən icazəsiz aksiya keçirməyə və asayişi qorumağı vəzifə borcu hesab edən polislərlə qarşıdurma yaratmağı nəzərdə tuturlar. İcazəsi aksiyanın keçirilməsi zamanı polisin qanunu vəzifəsini icra edəcəyi şübhəsizdir. Bu halda Ə.Kərimli, C.Həsənli və onların trolları haray-həşir salıb ölkəmizə gələn qonaqların diqqətini özlərinə cəlb etməyə çalışacaqlar. Hətta üst-başlarını cırıb, sosial şəbəkələr vasitəsi ilə canlı yayımlar təşkil edib, vay-şüvən qoparacaqlar. Söz yox ki, ilana ağu verən kərtənkələ rolunda çıxış edən xarici anti-Azərbaycan qüvvələr də hərəkətə keçib, dağıdıcı müxalifətin təxribatına haqq qazandıran açıqlamalar verəcək, məlumatlar yayacaqlar. Əvvəlcədən hazırladıqları hesabatı yenidən nəzərdən keçirib, yayımını təşkil edəcəklər. Bununla da COP29 konfransını gözdən salmağa və Azərbaycana qarşı səlib yürüşünü davam etdirəcəklər. Lakin ortada olan bir həqiqət var ki, kimin nə düşünməsindən və hansı yönümlü təxribat planlaşdırmasından asılı olmayaraq Azərbaycan COP29 konfransını uğurla başa çatdıracaq və dünyaya azad, demokratik və böyük gücə, qüdrətə malik dövlət olduğunu nümayiş etdirəcək.

***İLHAM ƏLİYEV***





# Xüsusi hazırlıq keçmiş taksi sürücüləri üçün test imtahanı keçiriləcək

Dövlət İmtahan Mərkəzi (DİM) noyabrın 3-də xüsusi hazırlıq keçmiş taksi minik avtomobili sürücüləri üçün imtahan keçirəcək. DİM-dən SİA-ya bildirilib ki, imtahanda iştirak etmək üçün 774 nəfər qeydiyyatdan keçib. Kompüter vasitəsilə elektron qaydada təşkil olunan imtahan DİM-in Binəqədi rayonu, S.S.Axundov küçəsi, 50 ünvanında yerləşən elektron imtahanlar korpusunda saat 16:00 keçiriləcək və 1 saat davam edəcək. İmtahan iştirakçıları imtahanı yekunlaşdırdıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda nəticələrlə tanış ola biləcəklər. Nəticələr, həmçinin növbəti gün DİM-in saytına yerləşdiriləcək.



Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni "Elektron imtahanlara buraxılış vərəqələri və nəticələrin çapı" xidməti vasitəsilə çap edə bilərlər. İştirakçılar "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən vaxtda imtahan binasının qarşısında olmalıdırlar.

İmtahana gələrkən namizədlər "İmtahana buraxılış vərəqəsi" və şəxsiyyət vəsiqəsinin əslini mütləq təqdim etməlidirlər. Göstərilən sənədlərdən biri olmadıqda və ya onlar arasında uyğunsuzluq olduqda namizəd imtahana buraxılmayacaq.

İmtahan zamanı namizədlərə sürücülərin etik davranışı və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ-hüquqi aktlara dair Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilmiş xüsusi hazırlığın proqramını əhatə edən 20 test tapşırığı təqdim ediləcək. Hər tapşırığın düzgün cavabı 1 balla qiymətləndirilir. Səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. 10 və daha çox bal toplamış şəxslər imtahanı müvəffəqiyyətlə vermiş sayılırlar və onlara 7 (yeddi) il müddətində etibarlı olan şəhadətnamə təqdim ediləcək. "Yaddaş kitabçası" ilə DİM-in saytından tanış ola bilərsiniz. İmtahan iştirakçılarından kitabça ilə mütləq tanış olmaları xahiş edilir.

# Elektrovoz qatar yoluna çıxan 2 nəfəri vuraraq öldürüb

Ötən gün saat 22:15-də "Azərbaycan Dəmir Yolları" QSC-yə (ADY) məxsus elektrovoz Qobustan-Səngəçal istiqamətində hərəkət edərkən iki nəfər şəxs qəfil qatarın qarşısına çıxıb. ADY-dən bildirilib ki, maşinist tərəfindən təcili tormozlama aparılsa da, məsafə az olduğundan hadisə qaçılmaz olub.



"Təəssüf hissi ilə bildiririk ki, stansiya əməkdaşları tərəfindən hadisə yerinə dərhal təcili yardım briqadası çağırılsa da, hər iki şəxs aldıqları ağır bədən xəsarətlərindən dünyasını dəyişib. ADY bir daha insanlara çağırış edərək onları dəmir yolu xətlərini yalnız müəyyən edilmiş yer və piyada keçidlərindən istifadə etməklə keçməyi, məhdudiyyətli görünmə şəraitində, habelə sutkanın qaranlıq vaxtı xüsusilə ehtiyatlı olmağı, yolu keçərkən diqqəti yayındıran hərəkətlərdən, o cümlədən mobil telefon, yaxud qulaqcıqdan istifadə etməkdən çəkinməyi ciddi tövsiyə edir", - deyə ADY-nın yaydığı məlumatda bildirilir.

# “Gürcüstanda hakim partiyanın qələbəsi Qafqazda sülh üçün yaxşı nəticədir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*



**Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov ”Moskva-Baku” portalına müsahibəsində Gürcüstanda parlament seçkilərində ”Gürcü arzusu”nun qələbəsinin Cənubi Qafqazın gələcəyi üçün nə demək olduğu barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**







***- Gürcüstanda keçirilən parlament seçkilərindən əvvəl bir çox insanlar bunun böyük tarixi əhəmiyyəti olacağını və regionda vəziyyətin necə inkişaf edəcəyinin, Qərbin öz adamlarını təkcə Ermənistanda deyil, Gürcüstanda da hakimiyyətə gətirə biləcəyindən də çox asılı olduğunu deyirdilər. Bu belədirmi və "Gürcü arzusu"nun qələbəsi region üçün nə deməkdir?***

-Radikal qərbyönümlü müxalifətə, Saakaşvilinin varislərinə, böyük ehtimalla əvvəlcədən tapşırıq verilib- son dərəcə aqressiv istiqamətdə tamamilə Ukrayna ssenarisini izləmək. Belə olan halda Gürcüstan Rusiyaya qarşı ikinci cəbhə açacaqdı. Yeni böyük müharibə başlayacaqdı. Bundan az adam faydalanacaq. Amma gürcü radikal müxalifəti qarşısında belə bir vəzifə müəyyən Qərb qüvvələri tərəfindən ”sifarişçi-icraçı” münasibətləri çərçivəsində qoyulmuşdu. Radikal müxalifətin vəzifəsi ”sifarişçi”nin tapşırığını yerinə yetirmək, qonorar almaq, onların gələcək təminatı olmaq idi. Bir ölkə olaraq Gürcüstanda və bütün Cənubi Qafqazda nələrin baş verəcəyinə onlar əhəmiyyət verməzdi. Məsələn, Gürcüstanın hazırkı prezidenti Salome Zurabişvili Fransa vətəndaşıdır. Bir şey səhv olarsa, dərhal ora gedəcək.

Qərb qüvvələrinin Gürcüstanda radikal müxalifəti hakimiyyətə gətirmək planı hələ tam silinməyib. Bu gün seçkilərdən cəmi ikinci gündür. Parlamentə daxil olan bir sıra müxalifət partiyaları artıq mandatlarından imtina etdiklərini bəyan ediblər. Gürcüstan prezidenti mitinqlər keçirir və insanları seçkinin nəticələrinə etiraz etmək üçün küçələrə çıxmağa çağırır. ABŞ və 13 Aİ ölkəsi ”Gürcü Arzusu”nu hədələyir və seçkilər zamanı iddia edilən pozuntuları araşdıracaqlarını deyirlər.

Əgər ”Gürcü Arzusu” indi sağ qalsa və onun qələbəsi təsdiqlənərsə, kənardan müdaxilə və mümkün radikal təxribatlar, o cümlədən terror aktları ilə vəhşi etirazlar olmayacaq, deməli, bu, Cənubi Qafqaz üçün yaxşıdır. Məlumat var ki, seçkilərdən əvvəl Gürcüstana muzdlular, o cümlədən Gürcü Milli Legionu (Rusiyada terrorçu kimi tanınıb- redaktorun qeydi), Ukrayna Təhlükəsizlik Xidmətinin agentləri, təxribatçılar, qan tökməli olan şəxslər gətirilib. Çevriliş ssenarisini həyata keçirə biləcəklər, ya yox, bilinmir.

”Gürcü Arzusu”nun qələbəsi region üçün daha böyük təhlükəsizlik və sülh proseslərinin mümkünlüyü demək olardı. Gürcüstanın hazırkı hakimiyyətinin bu qələbəsi Cənubi Qafqaz üçün taleyüklüdür və prinsipcə, dünyada daha sabit vəziyyət baxımından məqbuldur. Əgər ”Gürcü arzusu” indi sağ qalsa, o zaman Cənubi Qafqazda sabitliyin pozulması planı Qərb qüvvələrinin ümid etdiyi dərəcədə reallaşmayacaq. Və onlar ümid edirdilər ki, Ermənistanı və Gürcüstanı nəzarətə götürəcək, orada öz adamlarını hakimiyyətə gətirəcəklər. Təbii ki, ”Gürcü arzusu”nun qələbəsi həm Rusiya, həm də Azərbaycanın xeyrinədir. Azərbaycan prezidenti, gördüyümüz kimi, Gürcüstan hakimiyyətini ilk təbrik edənlərdən olub.

”Gürcü arzusu” 12 ilə yaxındır ki, hakimiyyətdədir. Bu uzun müddətdir. Bundan əlavə, qeyd etmək lazımdır ki, kollektiv Qərbdən danışmaq olmaz və Qərbdə Gürcüstanla bağlı fikirlər tamamilə fərqlidir. Biz görürük ki, yalnız 13 Aİ ölkəsi Gürcüstandakı seçki prosesini pisləyib. Bu, müsbət və ya mənfi olmaqla Aİ-yə üzv ölkələrin ümumi sayının yarısıdır. Biz görürük ki, Macarıstanın baş naziri Viktor Orban Gürcüstanda keçirilən seçkilərin ertəsi günü Tbilisiyə gəlib və orada sözün əsl mənasında gürcü hakimiyyətini dəstəkləyib. Və Macarıstan indi Aİ-nin hazırkı sədridir.



Hesab edirəm ki, son aylarda xarici agentlər haqqında qanunun qəbul edilməsi və LGBT hərəkatının qadağan edilməsi ilə əlaqədar Qərb qüvvələri tərəfindən ”Gürcü arzusu”na çox ciddi təzyiqlərə (”beynəlxalq LGBT ictimai hərəkatının” fəaliyyəti ekstremist kimi tanınır və Rusiya Federasiyası ərazisində qadağan edilmişdir- təqribən red.), eləcə də Qərb funksionerlərinin Gürcüstanın Aİ-yə yolunun dayandırıldığı barədə bəyanatlarına baxmayaraq, gələcəkdə Aİ hələ də ”Gürcü arzusu” ilə işləməyə davam edəcək, o cümlədən Avropa İttifaqı ilə yaxınlaşma yolu ilə. Gürcüstan da öz növbəsində ”Gürcü arzusu” çərçivəsində NATO və Aİ-yə doğru irəliləməkdə davam edəcək. Bunu heç kim gündəmdən çıxarmır. Tbilisi Gürcüstanın Rusiya ilə iqtisadi üstünlüklərini qoruyub saxlayaraq yavaş-yavaş Qərbə doğru hərəkət edəcək.



İndi ABŞ-da prezident seçkilərinin nəticələrini gözləmək vacibdir. Tramp qalib gəlsə, məncə, ”Gürcü Arzusu”nun ABŞ-la indikindən daha yaxşı münasibətləri olacaq. Respublikaçılar müxalifətlə deyil, onunla işləyəcəklər.

***- Belə çıxır ki, Qərbin Cənubi Qafqazın üç ölkəsindən ikisinə (Gürcüstan və Ermənistan) nəzarəti ələ keçirmək planı Gürcüstan məsələsində iflasa uğrasa, Qərb qüvvələri Ermənistanı Rusiyadan ayırmaqda daha fəal olacaq?***

- Bu doğrudur. Qərb qüvvələri indi Ermənistanı daha böyük şövqlə alacaqlar. Lakin bu ssenari Trampdan çox Kamala Harrisin ABŞ-ın yeni prezidenti olacağı ehtimalında daha yüksəkdir. Sonra Ermənistanın KTMT-dən konkret çıxması və digər addımlar barədə danışa bilərik. O zaman ola bilsin ki, Ermənistandan yeni Ukrayna düzəltməyə cəhdlər ediləcək. Eyni zamanda, Gürcüstandakı seçkilərin bu nəticəsinin Ermənistan rəhbərliyini çox narahat etdiyini söyləmək olmaz. Paşinyan üçün bu, xüsusi rol oynamır. Ermənistanın həmfikir dövlətlərin əhatəsində olub-olmaması onun vecinə olmamalıdır. O, sadəcə olaraq Qərbin göstərişlərinə əməl edir və başqa işi yodxur. Eyni şəkildə, bu, onun üçün hansısa təhlükəli ssenaridə, Qərbdən gələn tapşırıqları yerinə yetirərkən, bir növ təhlükəsizlik yastığı olacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
31 oktyabr
2024-cü il

# Noyabr ayının qeyri-iş günləri açıqlandı



*Noyabr ayı ərzində ardıcıl altı gün qeyri-iş günü olacaq. SİA xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, 12 və 13 noyabr iş günləri ilə müvafiq olaraq 16 və 23 noyabr istirahət günlərinin yerləri dəyişdirilib.*

Qeyd edək ki, 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü iş günü hesab edilməyən bayram günləridir. Bu il noyabrın 9-u şənbə gününə təsadüf etdiyi üçün, Əmək Məcəlləsinə uyğun olaraq, növbəti həftənin bazar ertəsi, yəni 11 noyabr qeyri-iş günü olacaq. Beləliklə, iş və istirahət günlərinin yerinin dəyişdirilməsi ilə əlaqədar ardıcıl altı gün - 8, 9, 10 (bazar günü), 11, 12 və 13 noyabr qeyri-iş günü olacaq. Eləcə də noyabrın 2-3-ü, 16-17-si, 23-24-ü və 30-u da müvafiq olaraq şənbə və bazar günlərinə təsadüf edir.

Əlavə edək ki, Nazirlər Kabinetinin qərarı ilə ölkəmizdə fəaliyyət göstərən orta məktəblərdə (xüsusi təhsil müəssisələri istisna olmaqla) payız tətilinin vaxtı dəyişib. Sözügedən qərarla ümumi təhsil pilləsi üzrə 2024-cü il noyabrın 12-dən 22-dək payız tətili olacaq.

Orta məktəblərdə tətil ümumilikdə 8 noyabrda başlayacaq və tam 17 gün - 25 noyabra qədər davam edəcək.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Qızıl bahalaşdı, gümüş ucuzlaşdı



Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti tarixi maksimumu yeniləyib. Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,36% artaraq 2 791 ABŞ dollarına bərabər olub. SİA birja məlumatlarına istinadən xəbər verir ki, COMEX-də gümüşün bir unsiyasının qiyməti də 0,31% azalaraq 34,34 ABŞ dollarına bərabər olub.

# "Mançester Yunayted"in yeni baş məşqçisi açıqlandı

*Erik ten Haqla yollarını ayıran İngiltərənin "Mançester Yunayted" komandasının yeni baş məşqçisi məlum olub. SİA xəbər verir ki, bu barədə tanınmış insayder Fabrizio Romano məlumat yayıb. Onun sözlərinə görə, "qırmızı-şeytanlar"a hazırda Portuqaliyanın "Sportinq" ( Lissabon) komandasının sükanı arxasında olan Ruben Amorim başçılıq edəcək. Klublar təzminat məbləği ilə bağlı danışıqları davam etdirirlər.*

Amorim Avropa nəhənglərinin hədəfində olan mütəxəssisdir. Onun namizədliyi "Barselona" (Xavi gedəndən sonra) və "Liverpul" (Klopp komandanı tərk etməmişdən əvvəl) tərəfindən ciddi şəkildə nəzərdən keçirilib, eləcə də "Çelsi" onun təyinatı ilə bağlı danışıqlar aparıb. Bundan əlavə, bildirilir ki, "Mançester Siti" gələn il Amorimi Pep Qvardiolanın varisi olaraq düşünürdü.

Qeyd edək ki, 39 yaşlı Amorim 2020-ci ilin martından "Sportinq"də işləyir. O, komandası ilə 2 dəfə Portuqaliya çempionluğunu, 2 dəfə ölkə kuboku və 1 dəfə ölkə Superkubokunu qazanıb.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700